**Əmlakın yanğından və digər risklərdən sığortası**
**QAYDALARI**

**MÜNDƏRICAT:**

I Fəsil. Ümumi müddəalar
Maddə 1. Əsas anlayışlar
Maddə 2. Sığorta predmeti
Maddə 3. Sığorta sinfi
II Fəsil. Sığortanın subyektləri
Maddə 4 . Sığortaçı
Maddə 5. Sığortalı
Maddə 6. Faydalanan şəxs
III Fəsil. Sığortanın obyekti
Maddə 7. Sığortanın obyekti
Maddə 8. Sığorta predmeti. Sığortalanan əmlakın hissələri
Maddə 9. Sığorta ilə əhatə olunmayan əmlak
IV Fəsil.Sığorta təminatı
Maddə 10. Sığorta təminatı
Maddə 11. Sığorta riskləri
Maddə 12. Sığorta təminatından istisnalar
Maddə 13. Sığortanın ərazisi
V Fəsil.Sığorta məbləği və sığorta haqqı
Maddə 14. Sığorta məbləği
Maddə 15. Sığortahaqqı
Maddə 16. Sığorta haqqının ödənilməsi
Maddə 17. Sığorta haqqının vaxtında ödənilməməsi
Maddə 18.Sığorta müqaviləsinin bağlanması qaydası
Maddə 19. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası
Maddə 20. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə
Maddə 21. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri
Maddə 22. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması
Maddə 23. Sığorta müqaviləsinin qüvvəyə minməsi
Maddə 24. Sığorta müqaviləsinin qüvvədə olma müddəti
Maddə 25. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri
Maddə 26. Təhlükəsizlik normalarının pozulması
Maddə 27. Sığortalının qəsdən edilən hərəkətləri
VI Fəsil. Sığorta hadisəsi zamanı ediləcək hərəkətlər
Maddə 28. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri
Maddə 29. Ziyanın qarşısının alınması və həcminin azaldılması
Maddə 30. Sığortaçı tərəfindən nəzarət
Maddə 31. Sığorta hadisəsini sübut etmək vəzifəsi
VII Fəsil. Ödənilən itkilər
Maddə 32. Sığorta ilə əhatə olunan itkilər
Maddə 33. Sığortalanmış əmlaka dəyən zərər
Maddə 34. Zərərin azaldılması məqsədilə çəkilən xərclər
Maddə 35. İtmiş əmlak tapıldıqda tərəflərin münasibətləri
Maddə 36. Natamam sığorta
VIII Fəsil. Sığorta ödənişi
Maddə 37. Sığorta ödənişinin hesablanması qaydası
Maddə 38. Sığortaçının bərpa metodunu seçmək hüququ
Maddə 39. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı
Maddə 40. Qalıqlara olan hüququn keçməsi
Maddə 41. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri
Maddə 42. Siğorta ödənişinin verilməsindən imtinanın əsasları
Maddə 43. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti
Maddə 44. Mübahisələrin həlli qaydası
IX Fəsil.Subroqasiya hüququ
Maddə 45. Zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı tələb hüququnun keçməsi
X Fəsil. Əlavə sığorta təminatı
Maddə 46. Sığorta təminatının genişləndirilməsi
Maddə 47. Zəlzələ
Maddə 48. Tullantıların təmizlənməsi
Maddə 49. Üçüncü şəxslərin qeyri-qanuni qərəzli hərəkətləri
Maddə 50. Seyfdə olan nağd pulun sığortası
Maddə 51. Yanğın, partlayış və daxili su basması nəticəsində mülki məsuliyyət
Maddə 52. Şüşənin sındırılması
Maddə 53. Yerüstü daşımalar
Maddə 54. Nağd pulun daşıması
Maddə 55. Konkret sığorta müqaviləsində digər əlavə təminatlar müəyyən edilə bilər.

## I Fəsil
## Ümumi müddəalar

**Maddə 1. Əsas anlayışlar**

Bu Qaydalarda və bu Qaydalar əsasında bağlanmış sığorta müqavilələrində aşağıdakı əsas anlayışlardan istifadə olunur:

**Sığortaçı** - sığorta qanunvericiliyi əsasında sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, Sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan Sığorta müqaviləsinin tərəfi olan yerlihüquqi şəxs;

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan və faydalanan şəxsin olmaması halında Sığortaçıdan sığorta ödənişini almağa səlahiyyətli olan Sığorta müqaviləsinin tərəfi;

**Sığorta obyekti** - Sığortalının sığortalanmış əmlakla bağlı qanunazidd olmayan əmlak mənafeləri;

**Sığorta hadisəsi** - sığorta müqaviləsinə görə sığorta ödənişinin Sığortalıya, yaxud faydalanan şəxsə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

**Faydalanan şəxs** - sığorta müqaviləsinə əsasən sığorta ödənişini almalı olan şəxs;

**Sığortanın müddəti** - sığorta risklərinin sığortalandığı müddət;
**Sığorta məbləği** - sığortalanmış risklər üzrə Sığortaçının öhdəliyinin sığorta müqaviləsi ilə müəyyənləşdirilmişməbləğlə ifadə olunan son həddi;

**Sığorta tarifi** - sığorta haqqının sığorta məbləğindən faizlərlə ifadə olunmuş tarifı;

**Sığorta haqqı** - risklərin qəbul edilməsi vəya bölüşdürülməsi müqabilində Sığorta müqaviləsində nəzərdə tutulan qaydada Sığortalının Sığortaçıya ödəməli olduğu pul məbləği;

**Sığorta ödənişi** - sığorta hadisəsi baş verdikdə Sığortalının əmlakına və ya əmlak mənafelərinə dəymiş zərərin yerinidoldurmaq məqsədilə Sığorta müqaviləsinə uyğun olaraq Sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və Sığortalının üzərində qalan hissəsi;

**Xüsusi şərtlər (zəmanətlər)** - sığorta müqaviləsinin Xüsusi şərtləri dedikdə o şərtlər başa düşülür ki, sığorta müqaviləsində və qanunvericilikdə sığorta ödənişinin verilməsindən imtina üçün şərtlərin olub olmamasından asılı olmayaraq həmin Xüsusi şərtlərin (zəmanətlərin) sığortalı tərəfindən yerinə yetirilməməsi sığortaçıya sığorta ödənişini verməkdən imtina etmək və ya sığorta müqaviləsini ləğv etmək hüququ verir;

**Sığortanın ərazisi** - sığorta təminatının qüvvədə olduğu ərazi;

**Bərpa xərcləri** - eyni yerdə və sığorta hadisəsi baş verənə qədər malik olduğu eyni şəraitdə binanın bənzərinin inşa edilməsi xərcləri.

**Maddə 2. Sığorta predmeti**

Bu Qaydalara əsasən sığorta predmeti Sığorta müqaviləsində, yaxud Sığorta şəhadətnaməsində göstərilmiş Sığortalanmış əmlakdır.

**Maddə 3. Sığorta sinfi**

Bu Qaydalara əsasən təqdim olunan sığorta məhsulu əmlakın yanğından və digər risklərdən sığortası sinfinə aiddir.

## II Fəsil

## Sığortanın subyektləri

**Maddə 4 . Sığortaçı**
Bu Qaydalara görə Sığortaçı - «A-Group» Sığorta şirkətidir.

**Maddə 5. Sığortalı**

5.1. Sığorta müqaviləsində göstərilən və sığortalanan əmlakla bağlı sığorta marağı olan istənilən hüquqi və yafiziki şəxs Sığortalı ola bilər.

5.2. Bu qaydalar daxilində Sığortalının (Sığorta olunanın) hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, "Sığorta fəaliyyəti haqqında" Qanuna, sığorta şəhadətnaməsinə və vəzifə öhdəliklərinə əsasən Sığortalı (Sığorta olunan) adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid

edilir.

**Maddə 6. Faydalanan şəxs**

6.1.Sığorta müqaviləsi sığortalanan əmlakın qorunub saxlanması ilə bağlı sığorta marağı olan digər şəxsin (Faydalanan şəxsin) xeyrinə bağlana bilər.

6.2.Sığorta müqaviləsinin digər şəxsin (Faydalanan şəxsin) xeyrinə bağlanması Sığortalını bu sığorta müqaviləsi üzrə öhdəliklərinin yerinə yetirilməsindən azad etmir.

6.3. Bu qaydalarla və sığorta şəhadətnaməsi ilə Sığortalıya (Sığorta olunana) aid edilən bütün müddəalar Faydalanan şəxsə də eyni həcmdə aid edilir.

## III Fəsil

## Sığortanın obyekti

**Maddə 7. Sığortanın obyekti**

Sığortanın obyekti Sığortalının və (və ya) Faydalanan şəxsin sığortalanmış əmlak üzərində sahiblik, sərəncamvermə və (və ya) istifadə hüquqları ilə bağlı əmlak mənafeləridir.

**Maddə 8. Sığorta predmeti:**

**Sığortalanan əmlakın hissələri:**

8.1. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığortalanmış binanın (tikililərin) tərkibinə aşağıdakılar daxildir:
8.1.1. tikilinin özü, o cümlədən divarlar, döşəmə, tavan, qapılar və pəncərələr (şüşələr istisna olmaqla);
8.1.2. xarici dekorasiya;
8.1.3. divarların, döşəmənin, tavanın, daxili qapıların, pəncərələrin (şüşələr istisna olmaqla) daxilidekorasiyası;
8.1.4. sığortalanmış binanın (tikilinin) ərazisində yerləşən mühəndisinfrastruktur qurğuları və elementləri (su, qaz, elektrik təchizat sistemi, kanalizasiya, istilik, ventilyasiya və kondisioner sistemi, quraşdırılmış yanğın söndürmə və xəbərdarlıq sistem və qurğuları, lift və lift avadanlığı, eskalatorlar, binanın hissəsi olan divar daxili elektrik, telefon və televiziya naqilləri, telekommunikasiyavə s. buna bənzər kommunikasiya xətləri)
8.1.5. yanğınsöndürmə sistemləri və qurğuları.

8.1.6. mənzil (ev) sığortalandığı halda, onun mühəndis avadanlıqları:

8.1.6.1. elektrik təchizatı sistemi, telefon, televizor kabelləri, yanğın və mühafızə siqnalizasiyaları vəs. buna bənzər kommunikasiya xətləri;
8.1.6.2. su təchizatı və kanalizasiya sistemi;
8.1.6.3. hava təmizləyici və kondisioner sistemi.
8.1.6.4. istilik sistemi;
8.1.6.5. sanitariya texnikası avadanlığı.

8.1.7. bağ və həyət hasarları, kontrforslar (uçqunun, sürüşmənin, çökmənin nisbətən qarşısının alınmasından ötrü perpendikulyar tikilən dayaq hasarları), səkilər, meydançalar, eyvanlar, pilləkənlər, bulaqlar, binaların xaricində olan heykəllər, su anbarları, hovuzlar və bu kimi digər tikililər, yalnız sığorta şəhadətnaməsində yazılması şərtilə, sığorta təminatına daxil edilə bilər.

8.2. Sığortalanmış binanın (tikilinin) içərisindəki daşınar əmlak.
8.2.1. Əgər başqa razılıq əldə edilməmişdirsə, Sığortalanan daşınar əmlak sığorta müqaviləsinə əlavə edilən «Sığortalanmış əmlakın Siyahısında» göstərilir.
8.2.2. Daşınar əmlak onun daxilində olan ayrı-ayrı əşyaların müəyyənləşdirilməsi aparılmadan lakin sığortalanan əmlakın təsnifat əlamətlər üzrə ayrılmış müxtəlif növlər və qrupların göstərilməsi şərti ilə sığortalana bilər (misal üçün, avadanlıq, inventar, xammal, materiallar və digərləri).

8.3. Əlavə olaraq sığorta hadisəsi nəticəsində mülki məsuliyyət və iş fəaliyyətinin dayanması halı sığortanın predmeti ola bilər.

**Maddə 9. Sığorta ilə əhatə olunmayan əmlak**

9.1.Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığortalanan əmlakın tərkibinə aşağıda göstərilənlər daxil edilmir:
9.1.1. nağd pul;
9.1.2. səhmlər, istiqrazlar və digər qiymətli kağızlar;
9.1.3. açıq səma altında saxlanılan daşınar əmlakın oğurlanması və ya hava şəraiti ilə əlaqədar (ildırımistisna olmaqla) ona zərər dəyməsi;
9.1.4. Kənd təsərrüfatı məhsullarının sığortası; heyvanların, o cümlədəniri və xırda buynuzlu mal-qarasığortası,kənd təsərrüfatı bitkiləri, ağacları, qazonlar, kolluqlar;
9.1.5. nəqliyyat vasitələri, o cümlədən hərəkət edən avtomobil nəqliyyatı vasitələri, inşaat, kənd təsərrüfatıvə sairə maşınlan, motosikletlər, mopedlər, qoşqular, dəmiryol lokomotivləri, yaşayış vaqonları, hərəkətedən evciklər və onlara aid olan əşyalar, su və hava nəqliyyatı vasitələri;
9.1.6. Zinyət əşyaları,qiymətli və yarım qiymətli daşlar və metallar, xəzlər, xəz məmulatları;
9.1.7. texniki informasiya daşıyıcıları, kompüterlər və analoji sistemlər, xüsusən də maqnit lentləri vəkassetlər, maqnit

diskləri, yaddaş blokları və sairə;
9.1.8. əlyazmaları, planlar, çertyojlar, və digər sənədlər, mühasibat və iş kitabları;
9.1.9. torpaq, torpaq mülkiyyəti, qazıntılar, körpülər (gəminin yan alması, üçün), limanlar, körpülər, keçidcığırları, drenaj dəhlizləri, yollar və digər döşənmiş səthlər;
9.1.10. tikilməkdə olan bina və tikililər;
9.1.11. kosmik və ya kosmosla əlaqədar risklər, o cümlədən süni peyklər, kosmik gəmilər, onlarınburaxılış sahələri və əsas tərkib hissələri;
9.1.12. təməlləri ən aşağı zirzəmi qatında, zirzəmi yoxdursa, torpağın səthində yerləşən mexanizmlər vəbuxar qazanları;
9.1.13. nüvə (atom) enerjisi qurğuları;
9.1.14. silah və sursat;
9.1.15. partlayıcı maddələr, tez alışan (yanıcı) maye və qazlar;
9.1.16. çox güclü zəhərlər, zəhərləyici və kəskin maddələr;
9.1.17. mülki dövriyyədən çıxarılmış əmlak.
9.1.18. Ofşorda (su/dənizdə) olan əmlaklar, o cümlədən qazma qurğuları, dənizdə olan qurğu və tiklilər, neft platformaları, mayaklar və s. və onların ayrı-ayrı hissələri.
9.1.19. incəsənət əsərləri
9.1.20. İstismarda olan elektrik və bölüşdürücü xətlər.
9.1.21. Sığorta müqaviləsində xüsusi ilə istisna edilən digər əmlak.

## IV Fəsil

## Sığorta təminatı

### Maddə 10. Sığorta təminatı

Sığortaçı sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta müqaviləsində göstərilən əmlakın həmin müqavilədə nəzərdə tutulan risklərin səbəb olduğu sığorta hadisəsinin birbaşa və yeganə səbəbi nəticəsində qəfil və təsadüfi fiziki məhv olması və ya zərərə məruz qalması zamanı Sığortalıya təminat verməyi öhdəsinə götürür.

### Maddə 11. Sığorta riskləri

**11.1.** Sığorta təminatı verilən risklərin siyahısı sığorta müqaviləsində göstərilir. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, bu Qaydalarla aşağıdakı sığorta riskləri müəyyənləşdirilir:

**11.1.1. Yanğın**

11.1.1.1. «Yanğın» dedikdə - yandırılması və mühafizə edilməsi üçün xüsusi olaraq müəyyən edilmişyerdən kənarda öz-özünə yayılmaq imkanı olan alovun, həmçinin yanma məhsullarının və alovunyayılmasının qarşısını almaq məqsədilə həyata keçirilən yanğınsöndürmə tədbirlərinin təsiri başadüşülür.

11.1.1.2. Aşağıdakılar sığorta ilə əhatə edilmir və onlara görə dəymiş zərərin əvəzi ödənilmir:
11.1.1.2.1. yanğın nəticəsində baş verməyən alovun vurduğu ziyan;
11.1.1.2.2. sığortalanmış əmlakın emal edilməsi və digər məqsədlər (məsələn, qurudulma,qaynadılma, hamarlama, qaxac edilmə, qızdırma, qaynar emal edilmə və s.) üçün onun alov,istilik və ya digər termik vasitələrlə emalı nəticəsində dəyən zərər;
11.1.1.2.3. elektrik enerjisinin təsiri nəticəsində, əgər belə təsir sonrakı yanğının baş verməsinəsəbəb olmursa, sığortalanmış elektrik avadanlıqların yanması və ya başqa cür zərər dəyməsi;
11.1.1.2.4. zəlzələ, yeraltı alov və ya vulkan püskürməsinə görə baş verən hər hansı yanğınnəticəsində dəyən zərər;

**11.1.2. İldırım**

İldırımın sığortalanmış əmlakı birbaşa vurması İldırım vurması sayılır.

11.1.2.1. «İldırım çaxması» - buludlar və yer arasındakı güclü elektrik boşalması nəticəsində baş verəntəbiət hadisəsidir.

**11.1.3. Partlayış**

11.1.3.1. «Partlayış» - qazların genişlənməyə meylliliyi ilə əlaqədar qısa zaman kəsiyində böyükenerji kütləsinin məhdud həcmdə boşalması ilə müşayiət olunan şiddətlə baş verən prosesdir.
11.1.3.2. Aşağıdakılara görə sığorta təminatı verilmir və zərərin əvəzi ödənilmir:
11.1.3.2.1. qoruyucu qapaqların qırılması, parçalanması və ya təsiri;
11.1.3.2.2. daxiliyanma mühərrikinin yanma kamerasındakı partlayışı;

11.1.3.2.3. suyun təsiri iləyaranan genişlənmə və ya qabarma nəticəsindəki qırılma və yaparçalanma.

**11.1.4. Fırtına, tufan, qasırğa**
11.1.4.1. «Fırtına, tufan, qasırğa» dedikdə fırtına, tufan, tayfun, qasırğa, tornado, siklon başa düşülür.
11.1.4.2. Aşağıdakı zərərlər sığorta təminatina daxil edilmir və onlara görə sığorta ödənişi verilmir:

11.1.4.2.1. açıq pəncərələrdən, yaxud dəliklərdən, əgər həmin dəliklər bu bənddə göstərilmiştəbiət hadisələri nəticəsində yaranmamışlarsa, yağış, dolu və ya qar yağması və ya çirkabaxması nəticəsində

dəymiş zərər;

11.1.4.2.2. Əgər sığorta müqaviləsində digər şərtlər nəzərdə tutulmamışdırsa, binanın (tikilinin) xaricində yerləşən əmlaka (məs; lövhələr, işıqlandırma dirəkləri, fanarlar, antenalar), dirəklər də daxil olmaqla xarici elektrik məftillərinə və açıq havada yerləşən daşınar əmlaka və bostana dəymiş zərər;

11.1.4.2.3. fırtına və ya hər hansı təbiət hadisəsi nəticəsində baş verib-verməməsindən asılıolmayaraq, aşağıdakılar nəticəsində dəymiş zərər:

a) hər hansı təbii və (və ya) süni su anbarlarının, göllərin, rezervuarların, kanalların vəbəndlərin təbii sərhədlərindən suyun daşması;

b) dənizin su səviyyəsinin qalxması.

11.1.4.2.4. zərər dəyməsinə yeganə səbəb olaraq baş verərsə, qrunt sularının səviyyəsinindəyişməsi;

11.1.4.2.5. şaxta, torpağın çökməsi və ya qabarması, torpaq sürüşməsi, qar uçqunu.

72 ardıcıl saat ərzində fasiləsiz və ya ara verməklə davam edən fırtına nəticəsində dəyən zərərlər bir sığorta hadisəsi kimi qəbul olunur.

**11.1.5. Dolu**

11.1.5.1. «Dolu» - bərk buz halında olan atmosfer yağıntısıdır.

11.1.5.2. Aşağıdakılar nəticəsində sığortalanmış əmlaka dəyən zərər sığorta təminatına daxil edilmirvə onlara görə dəyən zərərin əvəzi ödənilmir:

11.1.5.2.1. açıq pəncərələrdən, yaxud dəliklərdən, əgər həmin dəliklər dolu nəticəsindəyaranmamışlarsa, yağış, dolu və ya qar yağması və ya çirkab axması nəticəsində dəyən zərər;

11.1.5.2.2. binadan (tikilidən, qurğudan) kənarda yerləşən əmlaka (məs; lövhələr, işıqlandırmadirəkləri, fanarlar, antenalar) dirəklər da daxil olmaqla xarici elektrik məftilləri, həmçininhasarlar.

11.1.5.2.3. Əgər sığorta müqaviləsində digər şərtlər nəzərdə tutulmamışdırsa, binanın (tikilinin) xaricində yerləşən əmlaka (məs; lövhələr, işıqlandırma dirəkləri, fanarlar, antenalar), dirəklər də daxil olmaqla xarici elektrik məftillərinə və açıq havada yerləşən daşınar əmlaka və bostana dəymiş zərər;

72 ardıcıl saat ərzində fasiləsiz və ya ara verməklə davam edən dolu nəticəsində dəyən zərərlər bir sığorta hadisəsi kimi qəbul olunur.

**11.1.6. Sel (daşqın)**

Sel (Daşqın) dedikdə, nohur, göl, çay, dərə, kanalların və digər təbii və ya süni su hövzələrinindaşması, dambaların və bəndlərin yuyulub aparılması ilə bağlı suyun qurunu basması, dənizlərin (qabarma və çəkilmə istisna olmaqla) səviyyəsinin qalxması, güclü yağışlar nəticəsində sığorta ərazisinin su basması başa düşülməlidir.

Bu riskə aşağıda göstərilənlər daxil edilmir:

1. qrunt sularının səviyyəsinin dəyişməsi nəticəsində dəyən itki və ziyan;
2. şaxta, torpaq çökməsi, torpaq qabarması və ya sürüşmə nəticəsində dəyən itki və ziyan;
3. Binanın daxilində və xaricindəki su borularının partlaması, su çənlərinin sıradan çıxması nəticəsində və ya daşmasına görə dəyən zərərlər, həmçinin bu qaydalarda "Daxili Su" təminatına aid edilmiş risklər;
4. Qızdırıcı radiatorların partlaması; Yağıntıların, o cümlədən qar və buzların əriməsi nəticəsində yaranan suların damlardan sızması, yağış suyu novçalarının tutulması və ya daşması nəticəsində binanın daxilinə axan sulara görə dəyən zərərlər

72 ardıcıl saat ərzində davam edən sel (daşqın) nəticəsində dəyən zərərlər bir sığorta hadisəsi kimi qəbul olunur.

**11.1.7. Təyyarə və ya digər uçuş aparatlarının, yerüstü nəqliyyat vasitələrinin, heyvanların dəyməsi (fiziki toxunması)**

11.1.7.1. Bu riskə aşağıdakılar daxildir:

11.1.7.1.1. Yerə enməsinə Sığortalı tərəfindən icazə verilən təyyarələrin vurduğu ziyan və yazədə istisna olmaqla, təyyarənin və ya digər uçuş aparatının, yaxud onlardan atılan yaxud onlardan düşən əşyaların fiziki toxunması;

11.1.7.1.2. Sığortalıya və ya onun işçisinə məxsus olmayan yerüstü nəqliyyat vasitəsinin fiziki toxunması.

11.1.7.1.3. Sığortalıya və ya onun işçisinə məxsus olmayan heyvanların fiziki toxunması.

11.1.7.2. Sığortalıya məxsus olan və ya onun istismarında olan nəqliyyat vasitəsinin təsiri nəticəsindədəyən zərərlər bu sığorta ilə əhatə edilmir və buna görə ödəniş verilmir.

**11.1.8. Torpaq sürüşməsi**

11.1.8.1. «Torpaq sürüşməsi» - daş və ya torpaq yığıntısının ağırlığının təsiri altında torpağın meyllioldıüğu istiqamətdə üzüaşağı sürətlə yerdəyişməsidir.

11.1.8.2. Aşağıdakı hallarbu sığorta ilə əhatə edilmir və onlara görə sığortalanmış əmlaka dəyənzərərin əvəzi ödənilmir:

11.1.8.2.1. həmçinin sığortalanmış binaya da zərər dəyməsi halları istisna olmaqla, avtodayanacaqlara, yollara, piyada yollarına, divarlara, darvazalara və hasarlara dəyən zərər,

11.1.8.2.2. sığortalanmış əmlaka aşağıdakılar nəticəsində dəyən zərər:

a) yeni tikililərin təbii çökməsi və ya batması;

b) tökmə süxurların çökməsi və ya yerdəyişməsi;
c) sahilin və ya çay yatağının yuyulması;
d) işin qüsurlu layihələndirilməsi və icrası, yaxud qüsurlu materialların istifadəsi;
e) alov, yeraltı alov, partlayış, yerüstü titrəmə, zəlzələ, hər hansı su hövzəsindən və ya kanaldan suyun axması.

11.1.8.2.3. sığorta müqaviləsinin qüvvəyə minməsinə qədər baş verən məhv olma və yazədələnmə.

11.1.8.2.4. Əgər sığorta müqaviləsində təminata daxil edilməsi barədə xüsusi qeyd yoxdursa, həmin və ya qonşu ərazidə aşağıda göstərilən işlərin aparılması nəticəsində başverən məhv olma və ya zədələnmə:

a) hər hansı əmlakın dağılması, tikilməsi, təmiri və ya ona struktur dəyişikliyiedilməsi;

b) partlatmaişlərininaparılması,qruntunxəndəklərvəqanovlar vasitəsiləyuyulması,boşluqlarındoldurulması,həmçininbərk,mayevəqazfaydalıqazıntılarının çıxarılması.
c) torpaq və ya torpaq qazıma işləri;

**11.1.9. Su Nəqliyyat vasitələrinin vurması yaxud dəyməsi**

1. Sığortaçı su nəqliyyat vasitələrinin sığortalanmış əmlakı vurması nəticəsində əmlakın zədələnməsi və ya məhvi ilə bağlı zərərlərə təminat verir.

2. Su nəqliyyat vasitələrinin vurması dedikdə su nəqliyyat vasitələri ilə təmas nəticəsində sığortalanmış əmlakın bilavasitə məhv olması və ya zədələnməsi.

3. Aşağıdakılara sığorta ilə təminat verilmir:

3.1. Sığortalının, sığortalanmış binalardan istifadə edənlərin və ya onların işçilərinin istismar etdikləri su nəqliyyat vasitələrinin əmlaka vurduğu zərərlər;
3.2 Əgər sığorta müqaviləsində təminata daxil edilməsi barədə xüsusi qeyd yoxdursa təminata Sığortalının nəqliyyat vasitələrinə vurulmuş ziyan.

**11.1.10. Tüstünün vurduğu zərər.**

Tüstü ilə vurulmuş zərər dedikdə sığortalanmış ərazidə olan qurğulardan (əritmə sobaları, odluq, hisxana və s.) qəfildən, nəzərdə tutulmamış şəkildə (təyinatı üzrə olmayan şəkildə) çıxmış tüstü (duda, his) ilə sığortalanmış əmlakın bilavasitə məhv edilməsi və ya zədələnməsi başa düşülür.

Tüstünün uzun müddətli təsiri nəticəsində dəymiş zərərlərə sığorta təminatı verilmir.

**11.1.11. Qar ağırlığı**
Sığorta müqaviləsinə əsasən verilən sığorta təminatına «qar ağırlığı» riski əlavə edilə bilər.
1. Bu risklə:
1.1. Güclü qar yağmasından sonra damlarda yığılmış qarın ağırlığına görə sığortalanmış binaya və onun içindəki əmlaka dəyən faktiki zərərlərə;
1.2. Qarın ağırlığından damın uçması və ya çökməsinə görə qar, yağış və dolunun binanın içindəki sığortalanmış mallara vurduğu zərərlərə;
sığorta məbləği hüdudunda sığorta təminatı verilir.
2. Bu risk:
2.1. Qarın ağırlığına görə damda heç bir xəsarət baş vermədən, qarın, dolunun, yağışın və ya əriyən qarın binanın içərisinə sızmasına görə dəyən zərərləri;
2.2. Çöldə qalmış mallara dəyən zərərləri;
əhatə etmir.

**11.1.12 Qar uçqunu**
**Qar uçqunu**– dağların yamaclarından böyük qar kütlələrinin axması.

**11.1.13. Daxili Su**
1. Sığorta təminatına daxil olan zərərlər:
1.1. Su, istilik, kanalizasiya, yanğın söndürmə və analoji sistemlərin və onlara daxil olan avadanlıqların qəzası,
1.2. qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində məhv olma və ya zədələnmə;
1.3. Yağıntıların, o cümlədən qar və buzların əriməsi nəticəsində yaranan suların damlardan sızması, yağış suyu novçalarının tutulması və ya daşması nəticəsində binanın daxilinə axan sulara görə dəyən zərərlər;
1.4. Magistral su kəmərlərinin, istilik, kanalizasiya xətlərin partlaması nəticəsində dəyən zərərlər;

2. Sığorta müqaviləsində digər şərtlər nəzərdə tutulmadıqda, aşağıdakı hallar üzrə sığorta təminatı verilmir:

2.1 sığorta olunan daşınmaz əmlakın daxilində yaranmış rütubət nəticəsində meydana gələn zərərlər (göbələk, kiflənmə, çürümə).

2.2 Anbarda olan mallara dəyən zərərlərə görə, əgər bu mallar döşəmə səthindən 20 sm az olan məsafədə saxlanılırsa.

2.3 Sığorta predmeti ərazisində yerləşən su borularının və ya rezervuarlarının təmiri, başqa yerə keçirilməsi və ya uzadılması nəticəsində baş vermiş zərər və itkilər

2.4 Sığorta predmeti ərazisində yerləşən və bağlanması unudulan kranlarından axan sulara görə dəyən zərərlər;

2.5 əldən çıxmış mənfəət, icarə yaxud mənzil haqqı ödənişləri kimi vasitəli mənfəət itkiləri kimi, suyun, buxarın, yaxud istiliyin itirilməsi və s.;

2.6 Sürüşmə, torpaq çökməsi və ya qalxması nəticəsində birbaşa və ya dolayısı ilə dəyən zərərlər.

3. Sudan zədələnmənin sığortası zamanı aşağıdakılar nəticəsində baş verən hadisələr sığorta hadisəsi sayılmır:

3.1. açıq qoyulmuş qapı və pəncərələrdən, bacalardan, həmçinin şaxtalardan, damda qoyulmuş gözlüklərdən içəri axan atmosfer yağıntıları nəticəsində dəyən zərər;

3.2. Köhnəlmə və ya inşaat qüsurları nəticəsində suların damlardan, çardaqlardan, panellərin birləşmə yerlərindən və ya dəliklərindən sızması nəticəsində binanın daxilinə axan sulara görə dəyən zərərlər;

3.3. istimə, havalandırma və soyutma sistemlərinin, daxili və xarici su şəbəkəsinin, tikililərin kanalizasiyasının donması və əridilməsi;

3.4. qrunt sularının səviyyəsinin dəyişməsi nəticəsində birbaşa və ya dolayısı ilə dəyən zərərlər

3.5. su, kanalizasiya, isitmə və yanğınsöndürmə sistemlərinin və buna bənzər sistemlərin aşınması və korroziya olması - əgər bu sistemlər Sığortalıya mülkiyyət hüququ əsasında məxsus olan binalarda, yaxud müqaviləyə, yaxud qanuna əsasən istismarına görə Sığortalının məsul olduğu sığorta ərazisində yerləşirsə.

Qeyd: hazırkı yarımbəndin müddəaları yuxarıda göstərilən sistemlərin o hissələrinə münasibətdə tətbiq edilir ki, onlar texniki pasportda yaxud müvafiq orqan tərəfindən təsdiqlənmiş digər sənədlərdə sığorta predmetinin ərazisi sərhədlərində olsun. Bu zaman sistemin bilavasitə ümumi divarlarda, hasarlarda, şaxtalarda və digər ayırıcı tikintilərdə olan hissələri də sığorta predmeti ərazisinə aid edilir.

**11.1.14. Oğurluq və qarət riskləri**

1. Sığortaçı aşağıdakılar nəticəsində əmlakın zədələnməsi və ya məhvinə qarşı təminat verir:

1.1. oğurluq;

1.2. sığorta ərazisində qarət (quldur hücum);

1.3. sığorta ərazisinə və ya ərazisindən daşınma və həmçinin yuxarıda qeyd olunmuş hərəkətlərə cəhd zamanı qarət.

Yuxarıda qeyd olunmuş risklərdən hər hansı biri ancaq sığorta müqaviləsində xüsusi olaraq göstərildikdə, sığortalanmış hesab olunur.

2. Sığorta müqaviləsi baxımından oğurluq cinayətkar aşağıdakıları etdikdə baş vermiş sayılır:

2.1. qapı və pəncərələri sındıraraq, kilidaçandan və ya saxta açarlardan və ya digər texniki vasitələrdən istifadə edərək sığortalanmış binalara daxil olduqda. Əsl açarlara sərəncam vermək hüququ olmayan şəxslərin tapşırığı və ya xəbərdar olması ilə hazırlanmış açarlar saxta hesab edilir; təkcə əmlakın sığorta ərazisindən itməsi saxta açarlardan istifadənin sübut olunması üçün kifayət deyildir;

2.2. sığortalanmış binaların daxilində əmlakın saxlandığı yer kimi istifadə olunan predmetləri yardıqda və ya onları kilidaçandan və ya saxta açarlardan və ya digər alətlərdən istifadə edərək açdıqda; xidməti və ya təsərrüfat məqsədləri üçün Sığortalı və onun yanında işləyən şəxslərlə yanaşı üçüncü şəxslər tərəfindən istifadə olunan binalarda bu cür zərərlər üzrə sığorta təminatı ancaq bu hal müqavilədə xüsusi olaraq göstərildikdə verilir;

2.3. daha əvvəl adi yolla daxil olduğu və onlar bağlananadək gizli şəkildə qaldığı bağlı binalardan predmetləri götürdükdə və binanı tərk edərkən 11.1.14 maddənin 2.1-ci bəndində qeyd olunmuş vasitələrdən istifadə etdikdə;

2.4. adi oğurluq edərkən aşkar edildikdə və oğurlanmış əmlakı mənimsəmək məqsədilə 11.1.14 maddənin 2.1 və 2.2-ci bəndlərdə qeyd olunmuş vasitələrdən istifadə etdikdə.

3. Sığorta müqaviləsi baxımından qarət (soyğunçuluq) cinayətkar aşağıdakıları etdikdə baş vermiş sayılır:

3.1. sığortalanmış əmlakın çıxarılmasına qarşı onların müqavimətini qırmaq üçün Sığortalıya və ya onun yanında işləyən şəxslərə qarşı zorakılıq tətbiq olunduqda;

3.2. Sağlamlıqlarına və ya həyatlarına təhditsəbəbilə Sığortalı və ya onun yanında işləyən şəxslər sığortalanmış əmlakın sığorta ərazisi daxilində verdikdə və ya verilməsinə imkan verdikdə; sığorta ərazisi bir neçə sığortalanmış bina və ya obyekt olduqda, Sığortalı və ya onun yanında işləyən şəxslərin sağlamlıqlarına və ya həyatlarına təhdidin ortaya çıxdığı sığortalanmış bina daxilində əmlakın çıxarılması qarət hesab edilir;

3.3. onların bu cür vəziyyəti özlərinin cinayətkar hərəkətlərinin nəticəsi olmadıqda və onların bu cür çıxarılmaya

müqavimət göstərmələrinə imkan vermədikdə, Sığortalının və ya onun yanında işləyən şəxslərin çarəsiz vəziyyətdə olduqları zaman sığortalanmış əmlak onlardan alındıqda.

Sığortalanmış əmlaka qayğının müvəqqəti tapşırıldığı Sığortalının ailə üzvü onun yanında işləyən şəxslərə bərabər tutulur.

4. Sığortalanmış əmlakın sığorta ərazisinə və ya yerindən daşınması zamanı qarət üzrə 11.1.14 maddənin 3-cü bəndində göstərilmiş şərtlərə əlavə olaraq aşağıdakı şərtlər tətbiq olunur:

4.1. Sığortalının tapşırığı ilə bu cür daşınmanı həyata keçirən şəxslər Sığortalıya bərabər tutulur; lakin bu müddəa müqavilələrə əsasən Sığortalıya işləməyən yüklərin, qiymətli əşyaların və nağd pulların peşəkar daşıyıcıları və ya inkassatorlar tərəfindən həyata keçirilən daşınmalara tətbiq olunmur;

4.2. 11.1.14 maddənin 3.2.-ci bəndində sadalanmış hallarda sığortalanmış əmlak təhdidin edildiyi yerdə götürüldükdə, qarət baş vermiş sayılır.

5. Aşağıdakıların nəticəsində dəymiş zərərə sığorta təminatı verilmir:

5.1. Sığortalı ilə birgə yaşayan və onunla birgə təsərrüfat aparan şəxslərin oğurluq və ya qarət əlamətləri daşıyan hərəkətləri;

5.2. Oğurluğun və ya qarətin həyata keçirilməsi və hazırlanması sığortalanmış binaların bu cür şəxslər üçün bağlı olduğu vaxt ərzində icrası istisna olunmaqla, Sığortalıya işləyən şəxslər qəsdən edilmiş hərəkətləri;

5.3. sığorta ərazisinə və ya ərazisindən daşınma zamanı qarət:

- daşınmalar sığorta müqaviləsi nəzərdə tutulduğundan daha artıq sayda nəqliyyat vasitələri ilə həyata keçirildikdə;

- qarət daşınmanın həyata keçirilməsinin tapşırıldığı şəxslər tərəfindən həyata keçirildikdə;

5.4. bu hadisələr oğurluğun, qarətin və ya onlara cəhdin nəticəsində baş verdikdə, yanğın, partlayış və ya su borularının suyu ilə zərərin vurulması;

5.5. qaydaların 12.1.2.- 12.1.4-ci maddələrin müddəalarına uyğun olaraq hərbi hərəkətlərin, vətəndaş müharibəsinin və ya nüvə enerjisinin təsiri.

6. Qaydaların 9.1.1 – 9.1.2.-ci maddəsində sadalanmış predmetlərlə yanaşı oğurluq və qarətdən sığorta aşağıdakılara da təminat vermir:

6.1. kassa aparatı və ona bənzər aparatlar – nağd pullar onlardan çıxarılanadək;

6.2. içindəkilər də daxil olmaqla, qəpiklərin qəbulu üçün qurğu olan ticarət və ya xırdalama avtomatları.

7. Sığorta müqaviləsi ilə Sığortalıya işləyən şəxslərin şəxsi əşyalarının xüsusi sığortası nəzərdə tutulduqda, bu cür sığorta ancaq həmin şəxslərin adətən öz xidməti vəzifələrini icra edərkən istifadə etdikləri predmetlərə təminat verir. Sığorta Sığortalıya işləyən şəxslərə məxsus nağd pullara, qiymətli kağızlara və nəqliyyat vasitələrinə təminat vermir. Yuxarıda qeyd olunmuş əmlaka dair sığorta təminata ancaq həmin əmlaka dair digər sığorta müqavilələri bağlanmadıqda verilir.

8. Ancaq xüsusi olaraq sığorta müqaviləsində göstərildikdə aşağıdakı xərclər ödənilir:

8.1. sığorta hadisəsindən sonra binaların zir-zibilinin yığışdırması və təmizlənməsi xərcləri;

8.2. sığorta ərazisinin bilavasitə yaxınlığında olan ayrıca duran reklam stendləri və ya vitrinləri;

8.3. kassa seyflərindən və zirehli otaqlardan başqa, sığorta hadisəsi nəticəsində açarları itmiş yerlərin kilidlərinin və ya açarlarının dəyişdirilməsi xərcləri.

9. Sığorta ancaq o əmlakın çıxarılmasına, zədələnməsinə və ya məhv olunmasına təminat verir ki, həmin əmlak ev yarmaqla oğurluq (11.1.14 maddənin 2-ci bəndi) və ya qarət (11.1.14 maddənin 3-cü bəndi) baş verdiyi anda sığorta ərazisində (11.1.14 maddənin 9.1-ci bəndi) olsun.

Ancaq oğurluq və ya qarət edənin tələbi ilə həmin sığorta ərazisinin xaricindən sığorta ərazisinə gətirilmiş əmlak sığorta olunmamış sayılır.

9.1. Sığorta ərazisi aşağıdakılar sayılır:

9.1.1. oğurluq halında – sığorta müqaviləsində göstərilmiş binaların otaqları;

9.1.2. qarətdən sığorta üzrə - 11.1.14 maddənin 9.1.1.-cibəndində sadalanmışlarla yanaşı, kənar şəxslər tərəfindən istifadələrini istisna edən şəkildə çəpərləndikdə, sığorta müqaviləsində göstərilmiş və ya sığortalanmış binaların inşa edildiyi torpaq sahələrinin ərazisi;

9.1.3. daşınma zamanı qarətdən sığorta (11.1.14 maddənin 4-cü bəndi) – sığortalanmış əmlakın daşınmasının adi və rasional seçilmiş marşrutları; sığortalanmış nəqliyyat vasitəsinə yüklənmək üçün olduğu yerdən çıxarıldığı an marşruta daxil olmuş, çatdırılacağı şəxslərə təhvil verildiyi an isə marşrutdan çıxmış hesab edilir;

9.2. riskin artması hesab edilən ümumi hallarla yanaşı aşağıdakılarda riskin dərəcəsinin artması hesab edilir:

9.2.1. sığortalanmış binaların və yerlərin təmiri və ya yenidən təchiz edilməsi və həmçinin bilavasitə sığortalanmış binalara və yerlərə bitişik olan binaların və yerlərin təmiri və ya bu cür binalarda taxtabəndin və ya qaldırıcı mexanizmlərin quraşdırılması;

9.2.2. bilavasitə sığortalanmış yerlərə bitişik (yuxarıdan, aşağıdan və ya yandan) yerlərin uzun müddətə (60 gündən artıq) boşaldılması;

9.2.3. Sığortalının təsərrüfat fəaliyyətinin uzun müddətə (60 gündən artıq) dayandırılması;

9.2.4. bu cür kilidlərin açarları daha əvvəl itirildikdə, Sığortalının sığortalanmış yerlərdə və saxlanma yerlərində kilidlərin onlara bərabər kilidlərlə əvəz edilməsi üzrə tədbirlər görməməsi.

10. Sığortalı riskin dərəcəsini artıran halların aradan qaldırılması üçün bütün mümkün tədbirləri dərhal görməli, bu mümkün olmadıqda, Sığortaçı ilə razılaşdıraraq əlavə təhlükəsizlik tədbirləri görməli.

11. Qaydaların 25.1 maddəsinin müddəalarına əlavə olaraq, Sığortalı qanunlarla, normativ aktlarla və ya sığorta müqaviləsi ilə nəzərdə əmlakın mühafizəsi qaydalarına riayət etməlidir:

11.1. qanunlarla, normativ aktlarla və ya sığorta müqaviləsi ilə nəzərdə əmlakın mühafizəsi və qiymətli əşyaların saxlanması qaydalarına riayət etməli:

11.2. iş vaxtından kənar vaxtlarda sığortalanmış yerlərin bağlanmasını, zəruri hallarda isə onların mühafizəsini təmin etməli;

11.3. sığorta müqaviləsi ilə xüsusi sığorta təminatı nəzərdə tutulduqda, əmlakın siyahısını tutmaq və uçotunu aparmaq.

12. qaydaların 28-ci maddəsinə əlavə olaraq, sığorta hadisəsi baş verdikdə, Sığortalı aşağıdakıları etməlidir:

12.1. hadisə barədə dərhal müvafiq daxili işlər orqanlarına məlumat verməli;

12.2. oğurlanmış əmlakın siyahısını daxili işlər orqanlarına təqdim etməli;

12.3. Sığortaçı ilə razılaşdırılmış həddi aşan zərərlər (kassa zərəri) baş verdikdə, bu cür zərərin aşkar edildiyi gündən sonrakı 3 gün ərzində Sığortaçıya bu haqda məlumat verməli.

13. Sığortalı sığorta hadisəsi nəticəsində itirilmiş əmlakın olduğu yeri öyrəndikdə, bu haqda dərhal Sığortaçıya məlumat verməlidir.

14. Sığorta hadisəsi nəticəsində itirilmiş əmlak:

14.1. zərər ödənilənədəkzədələnməmiş vəziyyətdə Sığortalıya qaytarıldıqda, sığorta təminatı ödənilmir;

14.2. zərər ödənildikdən sonra zədələnməmiş vəziyyətdə Sığortalıya qaytarıldıqda, Sığortalı Sığortaçıdan aldığı sığorta ödənişi məbləğini ona qaytarmalıdır. Lakin bu cür əmlak sığorta hadisəsindənbirilkeçdikdənsonraqaytarıldıqda, Sığortalı alınmış sığorta ödənişi qaytarmaya bilər. sonuncuhaldaqaytarılmış əmlakSığortaçınınmülkiyyətinə keçir. Sığortalı bu əmlakı və həmçinin bu əmlakın Sığortaçının mülkiyyətinə keçməsini təsdiq edən sənədləri Sığortaçıya təhvil verməlidir;

14.3. zədələnmiş vəziyyətdə Sığortalıya qaytarıldıqda, Sığortaçı qaydaların 33-cü və 35-ci maddələrinə əsasən sığorta ödənişi verir.

**Maddə12**. **Sığorta təminatından istisnalar**

12.1. Əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakıların nəticəsində sığortalanmış əmlaka dəymiş zərərlərə görə sığorta təminatı verilmir:

12.1.1. Sığortalının qəsdən edilən hərəkətləri və kobud ehtiyatsızlığı;

12.1.2. nüvə partlayışının, şüalanmanın və radioaktiv zəhərlənmənin (radioaktiv çirklənmə), istənilən formada

nüvəenerjisinin təsiri;

12.1.3. müharibə, təcavüz, hərbi əməliyyatlar, xarici dövlətlərin düşmənçilik hərəkətləri, hərbi xarakterliəməliyyatlar (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, hərbi qiyam, inqilab, hərbi və qəsbkarhərəkətlər, hər hansı hərbi, hökumət, dövlət və ya yerli hakimiyyət orqanlarının qərarı ilə əmlakın müsadirəolunması,milliləşdirilməsi,rekvizisiyası,həbs və ya məhvedilməsivəyazədələnməsi və korlanması,məqsədi qanuni, yaxud hakimiyyətdə olan hökuməti devirmək və ya ona təsir etmək olan hər hansı şəxsin və ya şəxslərin hərəkətləri;terrorçuluq;

12.1.4. tətil, qiyam, kütləvi iğtişaşlar, vətəndaş və xalq iğtişaşları, nümayiş və əmək münaqişələri.Bu hadisələrinin qarşısını alması və ya təsirini azaltması üçün səlahiyyətli orqanların gördüyü tədbirlərin nəticəsində baş verən hər hansı itki, zərərlər və ya ziyan sığorta təminatından istisna edilir.

12.1.5. Üçüncü şəxslərin qeyri-qanuni qərəzli hərəkətləri;

12.1.6. sığorta riskinin fəaliyyəti nəticəsində ortaya çıxması halları istisna olmaqla, tədricən pisləşmə, daxiliçatışmamazlıq, gizli qüsurlar, həşəratların, parazitlərin vurduğu ziyan, ətraf mühitin çirklənməsi, təbiiköhnəlmə, atmosferin nəmliyi və quruluğu, hərarət və rütubətin dəyişməsi, qısalma, şişmə, çəkinin itməsi,korroziya, nəm və ya quru korlanma, rəngin, quruluşun və qoxunun dəyişməsi, fermentləşmə, öz-özünəyanma.

12.1.7. elektrikcihazlarında,qurğularında,məftillərindəvəyadigərelektrikavadanlığındaelektrikboşalmaları, zədələnmələr və ya nasazlıqlar;

12.1.8. Sığortalının sahibliyində,idarəçiliyində və ya nəzarətində olan əmlakda mexaniki sınmalar, onundüzgün olmayan şəkildə işləməsi, mərkəzəqaçma qüvvəsinin təsiri nəticəsində qırılması və parçalanması,əgər belə halların birbaşa səbəbi sığorta riskinin baş verməsi olmazsa;

12.1.9. Sığortalının sığorta hadisəsinin baş verməsinə səbəb ola bilən cinayət törətməsi;

12.1.10. sığorta müqaviləsi bağlanan zaman sığorta obyektində mövcud olan və Sığortalıya məlum olanqüsurlar;

12.1.11. tikilinin və ya onun bir hissəsinin uçması, əgər bu, sığorta hadisəsi nəticəsində baş verməmişdirsə;

12.1.12. sığortalanan əmlakın sığorta hadisəsi baş verən zaman və ya ondan dərhal sonra oğurlanması;

12.1.13. sığortalanan əmlakın istehsal məqsədləri ilə alov, isti və ya digər termik və kimyəvi təsir vasitəsi iləemalı:

12.1.14. texniki təhlükəsizlik, yanğın təhlükəsizliyi,sanitar normalarının (rütubətliliyin, tozbasmanınartması, havanın hərarətinin, saxlanma şəraitinin dəyişməsi) pozulması;

12.1.15. səs sürəti ilə və ya daha yüksək sürətlə hərəkət edən təyyarənin, yaxud digər uçuş aparatlarınınsəbəb olduğu sıxma dalğası;

12.1.16. Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa təmir, tikinti, bərpa, yenidənqurmaişləri nəticəsində dəyən zərərlər

12.1.17. Konkret sığorta müqaviləsində digər istisnalar müəyyən edilə bilər.

12.2.Bu maddənin məqsədləri üçün:

12.2.1.«terrorçuluq» - ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə-;

12.2.2.«öz-özünə yanma» - bəzi materialların (maddələrin, qarışıqların) alov mənbəyi olmadan təbii xarakteri ilə şərtlənən istinin materiallara davamlı təsiri nəticəsində istiliyin akkumulyasiyası və öz-özünə qızmanın nəticəsində materiallarım közərməsi və alışması həddinə çatmasıdır.

12.3. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakılar nəticəsində baş verən zərərlər bu sığorta ilə əhatə edilmir:

12.3.1. zəlzələ, vulkan püskürməsi və digər təbiət hadisəsi ilə müşayiət olunan titrəyişlər;

12.3.2. binanın (tikilinin) zirzəmisini su basması;

12.3.3. sunami.

**Maddə 13. Sığortanın ərazisi**

Sığorta müqaviləsində sığortanın qüvvədə olduğu ərazi göstərildiyi halda, yalnız həmin ərazi hüdudlarında baş vermiş sığorta hadisələrinə sığorta təminatı verilir. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, bu sığorta yalnız Azərbaycan Respublikasının ərazisində qüvvədə olacaqdır.

## V Fəsil
## Sığorta məbləği və sığorta haqqı

**Maddə 14. Sığorta məbləği**

14.1. Sığorta məbləği sığorta müqaviləsi ilə müəyyən edilmiş elə bir məbləğdir ki, sığorta hadisəsi baş verdiyi halda Sığortaçı sığorta müqaviləsində nəzərdə tutulmuş qaydada həmin məbləğ həddində sığorta ödənişini həyata keçirməköhdəliyini öz üzərinə götürür.

14.2. Sığortaməbləğisığortalanmışəmlakınsığortadəyəriniaşmamalıdır.Belədəyərsığortamüqaviləsi bağlandığı anda əmlakın yerləşdiyi yerdəki həqiqi dəyəridir.

Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, həqiqi dəyər aşağıdakı qaydada müəyyənləşdirilir:

14.2.1. avadanlıq, inventarlar və əşyalar üçün - köhnəlmə dərəcəsi nəzərə alınmaqla sığortalanmalı olan əşyaya tam analoji olan əşyanın əldə edilməsi dəyəri;
14.2.2. binalar(tikililər)üçün- köhnəlmədərəcəsivəistismar-texnikivəziyyətinəzərəalınmaqla sığortalanmalı olan binaya (tikiliyə) tam analoji olan binanın (tikilinin) həminyerdə tikilmə dəyəri;

14.2.3. incəsənət əsərləri və kolleksiyalar üçün - ekspert qiymətləndirməsi, həmçinin incəsənət əsərlərinin və antikvariatın auksion satışı qiymətləri əsasında;

14.2.4.qiymətlimetallardanvəqiymətlidaşlardanistehsaledilmişməmulatlarüçün-ekspert qiymətləndirməsi məbləği.
14.2.5. sığortalı tərəfindən istehsal olunan mallar (həm hazır, həm də istehsalı başa çatmamış) üçün – onların satış qiymətindən artıq olmamaqla, məhv olmuş predmetlərin təkrar istehsalı üçün tələb olunan istehsalat xərcləri;
14.2.6. sığortalının ticarət etdiyi malları və aldığı xammal üçün – onların təkrar satın alınması və gətirilməsi üçün çəkilən xərclər.

14.3. Əgər sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta məbləği sığorta dəyərini aşarsa, həmçinin bu cür hal bu və ya əmlakın iki və ya daha çox sığortaçıda sığortalanması (ikiqat sığorta) nəticəsində yaranarsa, sığorta müqaviləsi sığorta məbləğinin sığorta dəyərini aşan hissəsinə münasibətdə etibarsızdır, lakin bu halda sığorta haqqının artıq ödənilmiş hissəsi qaytarılmır.

Əgər sığorta məbləğinin sığorta dəyərini aşması Sığortalının aldatmasının nəticəsidirsə, Sığortaçının sığorta müqaviləsinin etibarsız hesab edilməsini tələb etmək və bununla ona dəymiş zərərin əvəzinin ödənilməsini Sığortalıdan tələb etmək hüququ var.

14.4. Əgər sığorta məbləği sığorta dəyərindən aşağı həddə müəyyən edilmişdirsə, sığorta hadisəsi baş verdiyi təqdirdə Sığortaçı Sığortalıya (Faydalanan şəxsə) zərərin, sığorta məbləğinin sığorta dəyərinəmütənasib olan hissəsini ödəməyə borcludur.

14.5. Sığorta məbləğinin həqiqi dəyərə uyğunluğu təqdim olunmuş sənədlər əsasında və ya ekspert qiymətləndirilməsi yolu ilə sığorta müqaviləsində göstərilmiş hər bir sığortalanan əmlak vahidi üzrə ayrıca və ya əmlak vahidləri məcmusu üzrə müəyyənləşdirilir.

**Maddə 15. Sığorta haqqı**

Sığorta haqqı illik sığorta tariflərinə əsasən hesablanır.

**Maddə 16. Sığorta haqqının ödənilməsi**

16.1. Sığorta haqqını nağdsız formada ödəyərkən Sığortalı ödəniş tapşırığında sığorta haqqının ödənilməsininəsasını təşkil edən Sığorta müqaviləsinin, yaxud Sığorta şəhadətnaməsinin nömrəsinə istinad etməlidir.

16.2. Sığorta haqqının ödənilməsi qaydası və forması Sığorta müqaviləsinin şərtlərinə uyğun olaraq həyata keçirilir.

16.3. Sığorta haqqı onun Sığortaçının bank hesabına daxil olduğu və ya Sığortaçı tərəfindən nağd ödənişformasında alındığı gün ödənilmiş hesab olunur.

**Maddə 17. Sığorta haqqının vaxtında ödənilməməsi**

17.1. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə Sığortaçı onun ödənilməsi üçün bu Qaydaların 17.2-cibəndinin tələbini nəzərə alaraq yazılı surətdə 15 (on beş) günədək müddət müəyyən edə bilər.

17.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi Sığorta müqaviləsi bağlandığı gündən bir aydan gec olmayaraq ödənilməlidir.

**Maddə 18.Sığorta müqaviləsinin bağlanması qaydası**

18.1. Bu Qaydalara əsasən Sığortaçı Sığorta müqaviləsini Sığortalı ilə bağlayır.
18.2. Sığorta müqaviləsini bağlamaqdan ötrü Sığortalı özünə məlum olan, Sığortaçınıntələbi olduqdasığorta riskinin dərəcəsini müəyyənləşdirməsinə təsir edə biləcək halları özündə əks etdirən, müəyyən olunmuş formada yazılı ərizəni dolduraraq Sığortaçıya təqdim etməlidir. Bu ərizə Sığorta müqaviləsinin tərkib hissəsi hesab edilir.
18.3. Sığortalının ərizəsində aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

18.3.1. Sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı və atasının adı), ünvanı və telefon nömrəsi;
18.3.2. Sığorta obyekti haqqında məlumat;
18.3.3. Riskin dərəcəsini və sığorta haqqını müəyyənləşdirmək üçün lazım olan digər məlumatlar.

18.4. Sığorta müqaviləsi yazılı formada aşağıdakı kimi bağlanır:
18.4.1. Tərəflərin bu Qaydalar əsasında sığorta müqaviləsini tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;
18.4.2. Bu Qaydalar ilə Sığortalının razı olmasını təsdiq etməsi şərti ilə Sığortaçı tərəfindən ona sığortaşəhadətnaməsinin verilməsi yolu ilə;

18.5. Sığorta şəhadətnaməsi tərtib olunduğu halda, sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

18.6. Sığorta müqaviləsi bağlanarkən Sığortalı özünə məlum olan və Sığortaçının sığorta müqaviləsindən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə Sığortaçıya məlumat verməlidir.

18.7. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan Sığortalı bu barədə Sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

18.8. Sığorta obyekti bir neçə sığortaçıda sığortalandığı halda, sığortaçılar Sığortalı qarşısında birgə məsuliyyət daşıyırlar.

18.9. Sığorta müqaviləsi bağlanmazdan əvvəl və ya sonra Sığortaçının sığorta müqaviləsi üzrə öz mülahizəsinə əsasən istənilən vaxt əmlaka baxış keçirə, habelə əmlaka baxış keçirmənin nəticələrinə əsasən Sığortalı tərəfindən qeyd-şərtsiz icra edilməli olan yazılı göstərişlər verə bilər.

**Maddə 19. Sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası**

19.1. Sığorta müqaviləsinə edilən əlavələr və dəyişikliklər yazılı formada tərtib olunmalı və hər iki tərəfdənimzalanmalıdır.

19.2. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:
19.2.1. Sığorta predmeti artıq mövcud olmadıqda;
19.2.2. Qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla, Sığortalı fiziki şəxs öldükdə və yaSığortalı hüquqi şəxs ləğv olunduqda:
19.2.3. Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;
19.2.4. Sığortaçı Sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;
19.2.5. Sığorta marağı artıq mövcud olmadıqda;
19.2.6.Sığortalı sığorta haqqını qanunvericilikdə və Sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;
19.2.7. Qanunvericilikdə müəyyən edilmiş digər hallarda.

**Maddə 20. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə**

20.1. Bu Qaydaların 19.2-ci bəndində göstərilən hallarda Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi üçün əsas olan şərait yarandıqda, Sığorta müqaviləsinə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

20.2. Sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasınaəsasən, sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 (otuz) gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 (altmış) gün, üç aydan az müddətə bağlanmış olduqda isə 5(beş) iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir. Belə bildiriş Sığorta müqaviləsinin ləğvi tarixini özündə əks etdirməklə Sığortalının və ya Sığortaçının Sığorta müqaviləsində göstərilən ünvanına göndərildikdə, Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən ləğv edilmiş sayılır. Bu bildirişin poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərildiyi kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi üçün kifayətdir və Sığorta müqaviləsi bildirişdə göstərilən tarixdən və vaxtdan etibarsız sayılacaq.

**Maddə 21. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

21.1. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla,SığortaçıhəminSığortamüqaviləsiüzrəişlərinaparılmasıxərcləriniçıxmaqlaSığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını ona qaytarır;

21.2. Sığorta müqaviləsinə Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqqınıbütünlüklə Sığortalıya qaytarır; əgər bu tələb Sığortalının Sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, Sığortaçı həmin Sığorta müqaviləsi üzrə işlərin aparılması xərcləri çıxılmaqla, Sığorta müqaviləsinin qurtarmamış müddəti üçün sığorta haqqını qaytarır.

21.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyihalda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə sığorta haqqı Sığortalıya qaytarılmır.

21.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək Sığortaçı tərəfindən Sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının Sığortalıya qaytarılması müvafiq olaraq bu Qaydaların 21.1-ci və 21.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

21.5. Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında Sığortaçı bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və (və ya) depozit sığorta haqqının qısamüddətli hissəsini saxlamaq hüququna malikdir.

**Maddə 22. Sığorta müqaviləsində əlavə şərtlərin nəzərdə tutulması**

Sığorta müqaviləsinin tərəfləri müqavilədə bu Qaydaların müəyyən müddəalarının istisna edilməsini, həmçinin həmin müddəalardan fərqli müddəalar daxil edilməsini və digər əlavə şərtlər nəzərdə tuta bilərlər. Bu halda konkret müqavilələrdə

müəyyən edilmiş müddəalar tətbiq edilir.

**Maddə 23. Sığorta müqaviləsinin qüvvəyə minməsi**

Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, Sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.

**Maddə 24. Sığorta müqaviləsinin qüvvədə olma müddəti**

Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrini əhatə edir.

**Maddə 25. Sığorta müqaviləsi qüvvədə olduğu zaman tərəflərin qarşılıqlı münasibətləri**

25.1. Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və Sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə Sığortaçıyadərhal, hər halda bu barədə 7 təqvim günündən gec olmayaraq məlumat verməlidir.

25.2. Sığorta riskinin əhəmiyyətli dərəcədə artmasına təsir göstərə bilən hallar haqqında məlumatı aldıqdan sonra Sığortaçı:
25.2.1.Sığorta müqaviləsinə müvafiq dəyişikliklər edə bilər;
25.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb edə bilər;
25.2.3. bu şərait yarandıqdan sonra Sığorta müqaviləsinə xitam verə bilər.

**Maddə 26. Təhlükəsizlik normalarının pozulması**

26.1. Əgər Sığortalı, Sığortalının sığortalanmış binada (tikilidə) işləyən işçiləri qanunla və ya digər normativ aktlara müəyyən edilmiş yanğın əleyhinə təhlükəsizlik, binanın və maddi dəyərlilərin mühafizəsi, işin aparılmasının təhlükəsizliyi qaydalarını və normalarını və ya digər analoji normativləri pozarlarsa, yaxud əgər belə pozuntular Sığortalının xəbəri olaraqdan baş verərsə, belə pozuntular riskin dərəcəsini əhəmiyyətli dərəcədə artıran hallar hesab ediləcəkdir. Belə pozuntular barədə məlumat alan Sığortaçı hazırkı qaydaları 25.2. bəndində göstərilən tədbirlər görə bilər yaxud məlumat aldığı gündən sonra bir ay müddətində Sığortaçının göstərilən pozuntular aradan qaldırılanadək sığorta müqaviləsini dayandırmaq hüququ var.

26.2. Sığortaçı səbəbi bilavasitə təhlükəsizlik qaydalarının pozulması olan sığorta hadisələrinə görə sığorta ödənişi verməkdən imtina etmək hüququna malikdir. Lakin belə qaydaların pozulması itkilərin baş verməsi səbəbi ilə əlaqəli olmadıqda sığorta ödənişi verilməlidir.

**Maddə 27. Sığortalının qəsdən edilən hərəkətləri**

27.1. ƏgərSığortalı,Sığortalınınsığortalanmışbinada(tikilidə)işləyənişçilərisığorta hadisəsinin baş verməsinə aparıb çıxaran hərəkətləri qəsdən etdikdə və ya bu cür hərəkətə qəsdən yol verdikdə, yaxud sığorta hadisəsinin səbəbini, yaxud zərərin həcmini müəyyənləşdirərkən qəsdən Sığortaçını və ya onun nümayəndəsini aldatdıqda, yaxud əgər sığorta müqaviləsi bağlandıqdan sonra Sığortalının bu Qaydaların 18 və 25-ci maddələrində göstərilmiş hallar barədə bilə-bilə yalan məlumat vermiş olduğu müəyyənləşdirilsə, Sığortaçı həmin sığorta hadisələrinə görə sığorta ödənişini vermək öhdəliyindən tam şəkildə azad edilir.

27.2. Əgər Sığortalı, Sığortalının sığortalanmış binada (tikilidə) işləyən işçiləri sığortalanmış əmlaka qəsdən ziyan, zərərin səbəbinin və həcminin müəyyənləşdirilməsi zamanı saxtakarlığa, aldatmaya, dələduzluğa görə məhkum olunarlarsa, məhkəmənin müvafiq qərarı qüvvəyə mindikdən sonra sığorta ödənişinin istənilən Faydalanan şəxsə verilməsi öhdəliyindən Sığortaçının azad olması qəti hesab olunur.

## VI Fəsil

## Sığorta hadisəsi zamanı ediləcək hərəkətlər

**Maddə 28. Sığorta hadisəsi baş verdikdə Sığortalının vəzifələri**

28.1. Bu Qaydalar əsasında bağlanmış Sığorta müqaviləsi üzrə sığorta hadisəsinin baş verməsi barədə Sığortalı, yaxud Faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində Sığortaçıya və ya onun nümayəndəsinə,eyni zamanda qanunvericiliyə uyğun olaraq həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

28.2. Sığorta müqaviləsində, yaxud şəhadətnaməsində sığorta hadisəsinin baş verməsi barədə məlumat verməyin müddəti və (və yaxud) metodu göstərilmişdirsə, bu müəyyən olunmuş müddətdə və həmin metodla həyatakeçirilməlidir.

28.3.Sığortalı sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları Sığortaçıya təqdim etməlidir.

28.4. Sığortalı Sığortaçıya araşdırma aparmağa və ona zərərin baş verdiyi şəraiti, onun xarakteri və həcmini müəyyənləşdirmək üçün əhəmiyyət daşıyan sənədlərlə maneəsiz tanış olmaq imkanını verməlidir;

28.5. Sığorta təminatı verildikdən sonra Sığortalının itkiləri üçüncü şəxslər tərəfindən tam şəkildə, yaxud qismən ödənilərsə, o cümlədən qanunvericilikdə nəzərdə tutulmuş iddia müddəti ərzində qanuna görə Sığortalını sığorta təminatını əldə etmək hüququndan tam şəkildə və ya qismən məhrum edən şərait yaranarsa, üçüncü şəxslərdən vəsaitləri aldıqdan sonra, yaxud Sığortaçıdan qanun əsasında sığorta təminatının müvafiq hissəsini Sığortaçıya qaytarmaqəsasında ödənişinin ödənilmə tələbi alındıqdan sonra 5iş günü ərzində müvafiq məbləği geri qaytarmalıdır.

28.6. Sığorta hadisəsinin baş verməsi və vurulan zərərin həcminin sübuta yetirilməsi öhdəliyini Sığortalı daşıyır.

**Maddə 29. Ziyanın qarşısının alınması və həcminin azaldılması**

Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətinazaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədiilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur. Sığortalının belə tədbirləri görməməsinin birbaşa və ya dolayı olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Belə tədbirlər həyata keçirilərkən Sığortalı Sığortaçının verdiyi bütün təlimatları yerinə yetirməyə borcludur.

**Maddə 30. Sığortaçı tərəfindən nəzarət**

30.1. Sığortaçı sığorta hadisəsi və onun nəticələri barədə Sığortalının bütün hərəkətlərinə nəzarət etmək və sığorta ödənişininverilməsinə təsir göstərən bütün məsələlər barədə qərar vermək imkanına malik olmalıdır.

30.2. Sığortalı sığorta hadisəsi nəticəsində zərər çəkmiş bütün əmlakı Sığortaçı onlara baxış keçirənə qədər zədəli olduğu vəziyyətdə qoruyub saxlamalıdır.

30.3. Sığortaçı, həmçinin onun səlahiyyət verdiyi istənilən şəxs üzərinə heç bir məsuliyyət götürmədən və ya müqaviləsi üzrə Sığortaçının hər hansı hüquqlarmı azaltmadan zərərin baş verdiyi binaya girmək, onu öz sahibliyinə götürmək və sahibliyində saxlamaq, həmçinin istənilən sığortalanmış əmlakı sahibliyinə götürmək və hər hansı ağlabatan məqsədlər üçün və üsullarlaSığortaçıya verilməsini tələb etmək hüququna malikdir. Əgər yuxarıda sadalanan şərtlər yerinə yetirilməzsə, sığorta ödənişi verilmir.

30.4. Faktıki təmir üzrə təmir xərcləri Sığortaçı ilə razılaşma əsasında müəyyənləşdirildikdə, təmir başlayana qədər təmir emalatxanası da Sığortaçı ilərazılaşdırılmalıdır.

30.5. Sığortalı sığorta hadisəsinə aid olan bütün sənədləri və məlumatları Sığortaçıya təqdim etməli, həmçinin hadisənin bütündigəriştirakçılarının vəsığorta hadisəsiiləəlaqəli məsələlərə baxansəlahiyyətli dövlət orqanlarının fəaliyyətləri barədə ona dərhal xəbər verməlidir.

30.6. Sığortalının Sığortaçı ilə ilkin razılıq olmadan öz məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı hərəkəti etməyə, saziş bağlamağa və ya vəd verməyə hüququ yoxdur.

30.7. Sığortaçı sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi araşdırmalarda Sığortalının mənafelərini öz hesabına təmsil və müdafiə edə bilər.

**Maddə 31. Sığorta hadisəsini sübut etmək vəzifəsi**

31.1. Sığorta hadisəsi faktının və dəyən zərərin həcminin sübut edilməsi vəzifəsi Sığortalının üzərinə qoyulur.

31.2. Sığorta hadisəsi faktının və şəraitinin, itkilərin həcminin təsdiq edilməsi üçün qanunvericilik və işgüzar xərclərə uyğun olaraq tələb olunan sənədlər də daxil olmaqla, Sığortalı özündə olan bütün sənədləri Sığortaçıya təqdim etməlidir.

## VII Fəsil

## Ödənilən itkilər

**Maddə 32. Sığorta ilə əhatə olunan itkilər**

Sığortaçı sığorta hadisəsi nəticəsində baş verən aşağıdakı itiklərə görə sığorta ödənişi verir:

32.1. Sığortalanmış əmlakın məhv olması və yazədələnməsi;

32.2. yanğının söndürülməsi(sığorta müqaviləsində bu cür xərclər üzrə sub-limit qeyd edildiyi halda) və ya onun yayılmasının qarşısının alınması üçün görülmüş tədbirlərə çəkilmiş ağlabatan və məqsədəuyğun xərclər;

32.3. Hazırkı qaydaların 34.1 tələbləri nəzərə alınmaqla Sığortalının itkilərin baş verməsi zamanı onların qarşısının alınmasıvə ya azaldılması,əmlakın xilas edilməsi üçün çəkdiyi ağlabatan və məqsədəuyğun xərclər;

**Maddə33. Sığortalanmış əmlaka dəyən zərər**
33.1. Sığortaödənişi:
33.1.1. bina (tikili) məhv olduqda (tam dağıntı) –sığortalanma tarixinə həqiqi dəyərindən çox olmamaq şərti iləonun bərpa qiyməti;
33.1.2. daşınan əmlak məhv olduqda və ya onun müəyyən zərərçəkmiş hissəsinin dəyişdirilməsi zərurəti yarandıqda - dəyişdirilən əmlakın vəziyyətindən asılı olaraq, aşınma dəyəri çıxılmaqla yeni analoji əmlakın həqiqi qiyməti;
33.1.2.1. istehsal olunan məhsullar üçün - xammala və işin görülməsinə çəkmiş xərclər;
33.1.2.2. inşa olunmaqda olan (natamam) binalarda, görülmüş işlər üçün - materiallara və işingörülməsinə çəkilən real xərclər;
33.1.3. əmlakın qismən zədələnməsi halında bərpa xərcləri həcmində həyata keçirilir.

33.2. Bərpa xərclərinə aşağıdakılar aiddir:
33.2.1. təmir üçün materiallara və ehtiyat hissələrinə çəkilən xərclər;
33.2.2. təmir işlərinə çəkilən xərclər;
33.2.3. materialların təmir yerinə gətirilməsi xərcləri və sığortalanmış əmlakın sığorta hadisəsi başverməmişdən dərhal əvvəlki vəziyyətində bərpa edilməsi üçün lazım olan digər xərclər.
33.3. Aşağıdakılar bərpa xərclərinə aid edilmir:
33.3.1. sığortalanmış əmlakın vəziyyətinin dəyişdirilməsi və ya yaxşılaşdırılmasından irəli gələn əlavəxərclər:

33.3.2. müvəqqəti və ya köməkçi təmir və ya bərpa işlərindən irəli gələn xərclər;
33.3.3. lazım olanlardan artıq çəkilən xərclər.
33.4. Bərpa xərclərinin məbləğindən təmir prosesində əvəz edilən hissələrin, cihazların, aqreqatların və detallarınköhnəlməsinə görə çıxılmalar edilir.
33.5. Əgər bərpa xərcləri qalıqların dəyəri ilə birlikdə köhnəlmənəzərə alınmaqla sığortalanmış əmlakın həqiqi dəyərini aşırsa, bu, əmlakın tam məhv olması kimi qiymətləndirilir.
33.6. Əgər sığortalanmış əmlakın bərpa xərcləri qalıqların dəyəri ilə birlikdə onun zədələnməmiş vəziyyətdəki həqiqi dəyərini aşmırsa, bu, həmin əmlakın zədələnməsi və ya qismən məhv olması kimi qiymətləndirilir.
33.7. Bu Qaydalarda nəzərdə tutulan sığorta hadisələri baş verərkən, sığorta müqaviləsində nəzərdə tutulmuş məbləğdə azadolma məbləği sığorta ödənişi məbləğindən çıxılır.
33.8. Əmlakın bərpa-təmir dəyəri Sığortaçının seçimi ilə ya ixtisaslaşmış ekspert təşkilatının hazırladığı tələbolunma təmir dəyərinin ilkin smetası (hesablanması, qiymətləndirilməsi) əsasında, ya da faktiki təmir üzrəmüəyyənləşdirilir.
33.9. Sığortaçı sığortalanmış əmlakla bağlı itkilərə görə sığorta ödənişini yuxarıda göstərilən qaydada, lakin sığorta məbləği həddində həyata keçirir.
33.10. Zədələnmiş olsa belə, sığorta hadisəsindən sonra qalan əmlakdan Sığortalı imtina edə bilməz. Belə qalıqların dəyəri sığorta ödənişi məbləğindən çıxılır.

**Maddə 34. Zərərin azaldılması məqsədilə çəkilən xərclər**
34.1. Sığorta ödənişinə düşən İtkilərin azaldılması məqsədilə çəkilən əsaslandırılmış xərclərin əvəzi, əgər belə zərərlər zəruridirsə və ya Sığortaçının göstərişlərinin yerinə yetirilməsi üçün çəkilmişdirsə, digər itkilərin əvəzinin ödənilməsiməbləği ilə birlikdə sığorta məbləğini aşmamaq şərtiləSığortaçı tərəfindənödənilir.
34.2. Sığortalının itkilərin aradan qaldırılması və ya azaldılması üçün ağlabatan və mümkün tədbirləri bilərəkdən görməməsinəticəsində baş verən itkilərin əvəzinin ödənilməsindən Sığortaçı azaddır.

**Maddə 35.İtmiş əmlak tapıldıqda tərəflərin münasibətləri**

İtmiş əmlak tapıldıqda Sığortaçı öz seçimi əsasında həmin əmlakı özündə saxlaya və ya onu Sığortalıya qaytara bilər. Tapılmış əmlak Sığortalıya qaytarıldıqda ona görə alınmış sığorta ödənişi Sığortaçıya qaytarılmalıdır. Əgər itmiş əmlak zədələnmiş vəziyyətdə aşkarlanarsa, Sığortaçı həmin itkilərin əvəzini Sığortalıya ödəyir.

**Maddə 36. Natamam sığorta**

36.1. Sığortaməbləğiəmlakınsığortadəyərindənazolduqda,sığortamüqaviləsindəbaşqahalnəzərdə tutalmışdırsa, sığorta ödənişi sığorta məbləğinin əmlakın sığorta dəyərinə mütənasib surətdə azaldılır.

36.2. Daşınmaz əmlakın həqiqi dəyəri onun bərpa dəyəri kimi müəyyən olunur, daşınar əmlakın həqiqi dəyəri isə onun bazar qiymətini təşkil edir.

**VIII Fəsil**

**Sığorta ödənişi.**

**Maddə 37. Sığorta ödənişinin hesablanması qaydası**
Sığortalanmış əmlaka vurulanzərərlərinhəcmi müəyyənolunduqdansonra sığorta ödənişinin hesablanması aşağıdakı həyata keçirilir:
37.1. Natamam sığorta zamanı - sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;
37.2. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduqda - azadolma məbləğinin miqdarı çıxılmaqla zərərlərə təminat verilir;
37.3. Sığorta müqaviləsi üzrə sığorta ödənişlərinin ümumi məbləği sığorta məbləğini aşa bilməz.

**Maddə 38. Sığortaçının bərpa metodunu seçmək hüququ**
38.1. Sığortaçı sığorta ödənişini həyata keçirmək əvəzinə öz seçimi ilə zədələnmiş və ya məhv olmuş əmlakı yaxud onun hər hansı hissəsini təkbaşına və ya digər Sığortaçılarla birlikdə bərpa etmək, yaxud əvəz etmək hüququna malikdir. Lakin Sığortaçı heç bir halda əmlakın sığorta hadisəsi baş verməzdən dərhal əvvəlki vəziyyətində bərpasıüçün tələb olunandan, həmçinin sığortalanmış əmlak vahidi üzrə sığorta məbləğindən artıq vəsait xərcləməyəborclu deyildir.
38.2. Sığortaçı əmlakı bərpa etmək və ya əvəz etmək barədə qərar verdikdə, Sığortalı öz hesabına çertyocları, spesifikasiyaları,parametrləri,miqdar göstəricilərini və belə məqsədlər üçünSığortaçıya lazım olan digər məlumatları ona təqdim etməlidir, lakin Sığortaçının bərpa və ya əvəzetmə ilə bağlı heç bir fəaliyyəti onun bərpa və ya əvəzetməni həyata keçirməkdə son qərarı hesab edilmir.
38.3. Əgər hakimiyyət orqanlarının qərarı üzündən Sığortaçı əmlakı bərpa edə və ya dəyişdirə bilmirsə, istənilən halda elə bir məbləği ödəməyə borcludur ki, belə bir qərarınolmayacağı təqdirdəhəmin əmlakın bərpası üçün həminki qədər məbləğ lazım ola bilərdi.

**Maddə 39. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin siyahısı**
Sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün Sığortalı sığorta hadisəsinin baş verməsi faktını, həmçinin Siğortalanmış əmlaka dəymiş zərərin həcmini göstərən bütün sənədləri, o cümlədən aşağıdakı sənədləri Sığortaçıya təqdim etməlidir:
39.1. sığorta hadisəsi haqqında yazılı ərizə;
39.2. Sığorta müqaviləsinin (sığorta şəhadətnaməsinin) əsli;
39.3. Sığorta hadisəsinin baş verməsini faktını təsdiq edən sənədlər;
39.4. Sığortaçının mülahizəsinə əsasən, sığorta ödənişinin verilməsi haqqında qərar qəbul etmək üçün lazım olan digər sənədlər.

**Maddə 40. Qalıqlara olan hüququn keçməsi**
40.1. Sığortaçı sığortalanmış əmlakın tam məhv olması və ya itməsinə görə sığorta ödənişi verirsə və ya onun ayrı-ayrı əvəz edirsə, həmin əmlakın müvafiq olaraq qalıqlarınyaxud da əvəz edilən hissələrinə dəyəri sığorta ödənişindən çıxılır yaxud Sığortaçının seçimi ilə belə qalıqlar üzrə hüquqlarSığortaçıya keçir.
40.2. Sığortalı hüquqların Sığortaçıya keçməsi üçün bütün lazımi tədbirləri görməyə borcludur.

**Maddə 41. Sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri**
41.1. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası bu Qaydalara əsasən bağlanan Sığorta müqaviləsi ilə müəyyən edilir.
41.2. Sığorta müqaviləsində azadolma məbləği nəzərdə tutulduğu halda, sığorta ödənişi azadolma məbləği çıxılmaqla ödənilir.
41.3. Sığorta ödənişinin verilməsi zamanı Sığortaçı sığorta ödənişi məbləğindən Sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş siğorta haqqı məbləğini tutmaq hüququna malikdir.
41.4. Qanunvericilikdə və bu Qaydalarda nəzərdə tutulan sığorta ödənişindən imtina halları istisna olmaqla, Sığortaçı bu Qaydaların 39-cu maddəsində sadalanan sənədləri aldıqdan sonra 30 iş günü ərzində lazımi tədqiqatları sona çatdırıb zərər və ödənişin miqdarını müəyyənləşdirdikdən sonra 14 iş günü ərzində sığorta aktını tərtib edir və razılaşdırılması üçün bu sənədi Sığortalıya təqdim edir.
41.5. Sığorta odənişinin verilməsi sığorta aktı həm Sığortaçı, həm də Sığortalı tərəfindən imzalandıqdan sonra həyata keçirilir.
41.6. Qanunvericilikdə və ya bu Qaydalarda nəzərdə tutulmuş əsaslar aşkar olunduqda və ya əmələ gəldikdə, Sığortaçı verilmiş sığorta ödənişinin geri qaytarılması tələbini irəli sürmək hüququna malikdir.

**Maddə 42. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**

Əgər Sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan istənilənzərərlərin bu sığorta ilə əvəzi ödənilmir və sığorta ödənişinin verilməsindən imtina edilir .
42.1. bu Qaydaların 25.1. və 28.1-ci bəndlərinin tələblərinə əməl edilməməsi nəticəsində, o cümlədən sığorta predmeti və ya sığorta hadisəsi barəsində Sığortalının Sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində Sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda;
42.2. Sığortalının. müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;
42.3. Sığorta müqaviləsi və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
42.4. Sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edib bilər ki, Sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;
42.5. Sığortaçınınsığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına Sığortalı tərəfindən maneçilik törədilməsi;
42.6. Sığortalının zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərər vuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir;
42.7. Baş vermiş hadisənin Sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
42.8. sığorta hadisəsinin sığorta haqqının tam və ya onun ilk hissəsinin ödənilməsi müddəti başa çatdıqdan sonra baş verməsi halında sığorta haqqı ödənilməmiş olduqda;
42.9. sığorta hadisəsinin sığorta haqqının növbəti hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;
42.10. sığorta hadisəsinin bu Qaydaların 17.1-ci bəndində nəzərdə tutulmuş halda Sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3gün sonra baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda.
42.11. bu Qaydalarda nəzərdə tutulan Xususi şərtlərin yerinə yetirilməməsi;
42.12. yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, Sığortalı tərəfindən Sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda Sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır;
42.13. Sığortalının, həmçinin onun nümayəndəsinin qəsdi və ya kobud ehtiyatsızlığı;
42.15. Sığorta hadisənin baş verməsi faktı səlahiyyətli orqan tərəfindən təsdiq edilmədikdə;
42.16. Sığortalı tərəfindən yanğın və mühafizə təhlükəsizliyi qaydalarının qəsdən pozulması;
42.17. Əmlaka baxışkeçirilməsinin nəticələrinə əsasən Sığortaçı tərəfindən Sığortalıya verilmiş yazılı göstərişlərin icra edilməməsi;
42.18. Sığorta müqaviləsi bağlanarkən mövcud olan və ya sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan, Sığortalının özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmişşəkildəbağlamaqqərarına təsir göstərə bilən, sığorta riskinin artması ilə bağlı hallar barədə sığortaçıya məlumatınverilməməsi və həqiqətəuyğun olmayan şəkildə məlumat verilməsi;

**Maddə 43. Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti**

Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Maddə 44. Mübahisələrin həlli qaydası**

Bu Qaydalar əsasında bağlanmış sığorta müqaviləsindən irəli gələn mübahisələr Sığortaçı ilə Sığortalı arasında danışıqlar yolu ilə, tərəflər razılığa gələ bilmədikdə isə qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

## IX fəsil

## Subroqasiya hüququ

**Maddə 45. Zərərə görə məsuliyyət daşıyan şəxsə qarşı tələb hüququnun keçməsi**
45.1. Subroqasiya hüququ, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş Sığortaçının istifadə etmək hüququdur.
45.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq sığorta ödənişini vermiş Sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.
45.3. Sığortalı sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlər Sığortaçını təmin etməlidir.
45.4. Sığortalı zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdənimtina etdikdə Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiyaqaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.
45.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış digər sığortaçıya, həmçinin qanunvericiliyə əsasən dəyən zərərə görə Sığortalı qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.
45.6. Əgər Sığortalı vurulmuş zərərə görə üçüncü şəxsdən (şəxslərdən) zərərin əvəzini almışdırsa, Sığortaçı yalnız verilməli olan sığorta ödənişi məbləği ilə Sığortahnınüçiincü şəxsdən (şəxslərdən) aldığı məbləğ arasındakı fərqi ödəyir.

## X Fəsil

## Əlavə sığorta təminatı

**Maddə 46. Sığorta təminatının genişləndirilməsi**

46.1. Əgər sığorta müqaviləsində ayrıca nəzərdə tutulubsa, sığorta təminatı bu Qaydaların 47-55-cü maddələrinə uyğun olaraq genişləndirilə bilər.

46.2. Əgər sığorta müqaviləsində başqa cür nəzərdə tutulmayıbsa, bu Qaydaların 47-55-cü maddələrində müəyyən olunmuş əlavə sığorta təminatına münasibətdə də bu Qaydaların ümumi şərtləri tətbiq edilir.

**Maddə 47. Zəlzələ**

47.1. Qaydaların məqsədləri üçün «zəlzələ» dedikdə təbii səbəblər üzündən baş verən yeraltı təkanlar və yer sətrinin titrəməsi başa düşülür. Zəlzələ nəticəsində dəyən zərərlər, əgər zəlzələnin sığortanın qüvvədə olduğu ərazidə baş verməsi səlahiyyətli seysmoloji xidmət orqanları tərəfindən qeydə alınarsa, sığorta ilə əhatə olunur.

47.2. Zəlzələnin, həmçinin zəlzələ nəticəsində baş verən yanğının səbəb olduğu, sığortalanmış əmlakın yuxarıda təsvir olunan hallarda istənilən məhv olmasına və ya zədələnməsinə münasibətdə sığorta müqaviləsində göstərilən məbləğdə ayrıca azadolma məbləği tətbiq edilə bilər.

47.3. Bu maddədə göstərilən zəlzələnin 72 ardıcıl saat ərzində davam edən bütün təkanları nəticəsində dəyən zərərlər bir sığorta hadisəsi kimi qəbul olunur.

**Maddə 48. Tullantıların (Dağıntıların) təmizlənməsi**
48.1. Sığorta hadisəsi nəticəsində zədələnən və ya dağılan sığortalınmış əmlakın dağıntılarının, söküntülərinin təmizlənməsi, sökülməsi və onadayaq verilməsi ilə əlaqədar Sığortalının əsaslandırılmış şəkildə çəkdiyilazımi xərclərin əvəzi sığorta müqaviləsində göstərilmiş həddə sığorta təminatına daxildir.
48.2. Sığorta müqaviləsi ilə sığortalanmayan əmlakın çirklənməsi və yoluxmaya məruz qalması ilə bağlı çəkilən xərclər və məsrəflər sığorta təminatına daxil deyil və bunlara görə sığorta ödənişi verilmir.
48.3. Yuxarıda qeyd olunanlara baxmayaraq, Sığortaçının sığortalanmış əmlaka və ya onun hər hansı bir hissəsinə münasibətdə ümumi məsuliyyəti sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğini aşmamalıdır.

**Maddə 49. Üçüncü şəxslərin qeyri-qanuni qərəzli hərəkətləri**
49.1. Sığorta müqaviləsində müəyyən olunan sığorta təminatı digər şəxslərin əmlakına zərər vurmaq niyyəti olan, Sığortalının işçiləri və ya Sığortalının adından fəaliyyət göstərən şəxslər, yaxud Sığortalıdan əmlakı saxlamaq, xidmət göstərmək məqsədləri üçün alan şəxslər, həmçinin oğrular, soyğunçular istisna olmaqla, istənilən şəxsin və ya şəxslərin qisas, nifrət, qəzəb və ya vandalizm motivləri ilə fəaliyyəti kimi başa düşülən «qeyri-qanuni qərəzli hərəkətlərinin"də əhatə edir.
49.2. Aşağıdakılar bu sığorta ilə əhatə olunmur və onlara görə ödəniş verilmir:
49.2.1. binanın, tikilinin və ya onun xaricindəki lövhələrin tərkib hissəsi olan və şüşə bloklarından fərqli olan şüşə örtüklərinə dəyən zərər; bu zaman şüşə sınması və ya şüşə sınmasının nəticələrinin səbəb olduğu, digər əmlaka dəyən zərərə görə sığorta təminatı verilir;
49.2.2. oğurluğun və ya onun nəticələrinin səbəb olduğu, sığortalanmış əmlaka dəyən zərər; lakin binaya soyğunçuluq zamanı sındırma, yaxud soyğunçunun gizlənmək cəhdləri nəticəsində dəyən zərərə görə sığorta təminatı verilir;
49.2.3. açıq səma altında yerləşən daşınar əmlaka dəyən zərər;
49.2.4. Sığortalının qəsdən etdiyi hərəkətlər nəticəsində sığortalanmış əmlaka dəyən zərər;
49.2.5. müharibə, hərbi müdaxilə, hərbi əməliyyatlar, düşmən ölkələrin fəaliyyəti, düşmənçilik və hərbi xarakterli əməliyyatlar (müharibə elan edilib-edilməməsindən asılı olmayaraq), vətəndaş müharibəsi, xalq iğtişaşları, xalq üsyanları, hərbi üsyan, iğtişaş, qiyam, inqilab, hərbi və qəsb olunmuş hakimiyyətin fəaliyyəti, hərbi vəziyyət, hər hansı hakimiyyətin və ya dövlət orqanlarının, yaxud yerli orqanların göstərişi ilə sığortalanmış əmlakın müsadirəsi, milliləşdirməsi və ya rekvizisiyası, yaxud dağıdılması və ya zədədənməsi, məqsədi qanuni, yaxud hakimiyyətdə olan hökuməti devirmək və ya ona təsir etmək olan hər hansı şəxsin və ya şəxslərin hərəkətləri;
49.2.6. tətillər, qiyam, kütləvi iğtişaşlar, vətəndaş və xalq iğtişaşları,yaxud əmək ixtişaşları;

49.2.7. Terrorism.

**Maddə50.Seyfdə olan nağd pulun sığortası**

1. Əmlakın yanğından və digər risklərdən sığortası qaydalarına əsasən bağlanmış sığorta müqaviləsi və bu əlavə şərtlər üzrə Sığortaçı yanğın, partlayış, ildırım, həmçinin silahlı qarət, oğurluq, təbii fəlakətlər, su kəmərləri və kanalizasiya sistemlərindən, isitmə və yanğınsöndürmə sistemlərindən olan su ilə zərərin vurulması nəticəsində Sığortalının seyflərində olan nağd pulun və qiymətli kağızların zədələnməsinin, məhv olmasının və ya itməsinin səbəb olduğu zərərlərə təminat verir. Risklərin siyahısı genişləndirilə və məhdudlaşdırıla bilər.

2. Nağd pulların və qiymətli əşyaların təhlükəsiz saxlanması üçün nəzərdə tutulan və Bankın tövsiyələrinə əsasən təchiz olunmuş təcrid olunmuş yerdə saxlanılan xüsusi avadanlıqseyf hesab edilir.

3. Sığortalanmış pulların, qiymətli kağızların və qiymətli əşyaların Sığortaçının seyfdə olduqları müddət ərzində vurulmuş zərərlərə təminat verilir.

4. Bu sığorta aşağıdakılara aid edilmir:

4.1. nağd pulların və digər qiymətli əşyaların daşınması və ya nəqli;
4.2. sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, Sığortalıya məxsus olmayan və onun seyflərdə saxlanılan nağd pullar və digər qiymətli əşyalar;
4.3. ödəmə qabiliyyəti əlamətlərini itirmiş bank biletləri (banknotlar);
4.4. seyflərdən kənarda olan nağd pullar və digər qiymətli əşyalar;
4.5. vəsaitlərin Sığortalının işçiləri tərəfindən oğurlanması;
4.6. nağd pulların verilməsi və ya qəbulu zaman səhvlərlə bağlı kassirin məsuliyyəti;
4.7. nağd pulların və qiymətli kağızların yox olması (çatışmaması);
4.8. Sığortalının depozitaridə saxlanan qiymətli kağızları.

5. Sığorta məbləğləri (Sığortaçının məsuliyyət hədləri) aşağıdakı məbləğlərdə müəyyən edilir:

5.1. sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsanağd pullar üçün – bu Sığortalıya xidmət göstərən Bank tərəfindən kassa əməliyyatlarının aparılması qaydasına uyğun olaraq müəyyən etdiyi limit çərçivəsində. Müəyyən edilmiş limitdən artıq məbləğlərin Sığortalının kassalarında ancaq əmək haqlarının, social sığorta üzrə müavinətlərin və təqaüdlərin ödənilməsi üçün bankda pulun alındığı gün də daxil olmaqla 3 iş günündən artıq saxlanmasına icazə verilmir.

5.2. qiymətli kağızlar və qiymətli əşyalar üçün – sığorta müqaviləsində göstərilmiş razılaşdırılmış məsuliyyət həddi çərçivəsində.

6. Mövcud olan normativ sənədlərə əsasən Sığortalının aşağıdakı öhdəlikləri var:

6.1. nağd pulların qəbuluvəverilməsini kassa mədaxil və məxaric sənədlərinin qeydiyyatı Jurnalında qeyd olunan kassa mədaxil/məxaric orderləri həyata keçirmək, o cümlədən, hesablama texnikası vasitələrinin tətbiqi ilə;
6.2. nağd pulların bütün daxil olmalarını və verilmələrini vərəqləri nömrələnmiş, tikilmiş və möhürlənmiş Kassa kitabında qeyd etmək;
6.3. Sığortalıda saxlanan bütün qiymətli kağızları nömrələnmiş, tikilmiş və möhürlənmiş və aşağıdakı rekvizitləri olan qiymətli kağızların qeydiyyatı Kitabında qeyd etmək:

Emitentin adı;
Qiymətli kağızın nominal dəyəri;

Alış dəyəri;
Nömrəsi, seriyası və s.
Alış və satış tarixləri

6.4. Bankın tövsiyyələrinə uyğun olaraq seyfi texniki mühafizə vasitələri ilə təchiz etmək, seyf otağında pulların təhlükəsizliyini təmin etmək;
6.5. nağd pulları və qiymətli kağızları yanmayan, kombinasiya edilmiş və ya adi bağlanan və möhürlənən metal şkaflarda saxlamaq.

7. Qaydaların 25.1-ci maddəsinə əlavə olaraq Sığortalının aşağıdakı öhdəlikləri var:

7.1. qanunlarla, normativ aktlarla və ya sığorta müqaviləsi ilə nəzərdə tutulmuş əmlakın mühafizəsi və qiymətli əşyaların saxlanması qaydalarına riayət etmək;
7.2. iş vaxtından kənar vaxtlarda sığortalanmış yerlərin və saxlanma yerlərinin bağlanmasını və plombalanmasını təmin etmək, qiymətli əşyaların saxlandığı yerlərdə isə sığorta müqaviləsi və ya digər normativ aktlarla bu yerlər üçün nəzərdə tutulmuş təhlükəsizlik dərəcəsini təmin etmək məqsədilə bütün tədbirləri görmək;
7.3. müqavilə ilə onların sığortası üzrə xüsusi təminat nəzərdə tutulubsa, qaydaların 9.1.1, 9.1.2 və9.1.6-ci maddələrində sadalanmış əmlakın siyahısını tutmaq və uçotunu aparmaq.

Yuxarıda qeyd olunmuş öhdəliklərin Sığortalı tərəfindən icra olunmadıqda, Sığortaçı sığorta ödənişi verməkdən imtina edə bilər.

8. nağd pul sığortalandıqdariskin artması hesab edilən ümumi hallarla yanaşı, aşağıdakılar da riskin dərəcəsinin artması hesab edilir:

8.1. qiymətli əmlak üçün nəzərdə tutulmuş saxlanma yerlərinin ləğv edilməsi və ya daha az etibarlı yerlərlə əvəz edilməsi və ya saxlanma yerlərinin etibarlılıq dərəcələrinin azaldılması;

8.2. sığortalanmış binaların və tikililərin təmiri və ya yenidən təchiz edilməsi və həmçinin bilavasitə sığortalanmış binalara və tikililərə bitişik olan binaların və yerlərin təmiri və ya bu cür binalarda taxtabəndin və ya qaldırıcı mexanizmlərin quraşdırılması;
8.3. bilavasitə sığortalanmış yerlərə bitişik (yuxarıdan, aşağıdan və ya yandan) yerlərin uzun müddətə (60 gündən artıq) boşaldılması;
8.4. Sığortalının təsərrüfat fəaliyyətinin uzun müddətə (60 gündən artıq) dayandırılması;
8.5. bu cür kilidlərin açarları daha əvvəl itirildikdə, Sığortalının sığortalanmış yerlərdə və saxlanma yerlərində kilidlərin onlara bərabər kilidlərlə dərhal əvəz edilməsi üzrə tədbirlər görməməsi.

9. Qarət, oğurluq, yanğın və ya digər sığorta hadisəsi baş verdikdə Sığortalının aşağıdakı öhdəlikləri var:

9.1. hadisə haqqında dərhal müvafiq daxili işlər orqanlarına (polis, yanğınsöndürmə idarəsi və s.) məlumat vermək;
9.2. seyfin mühafizəsi (qarət halında) və ya əmlakın xilas edilməsi üzrə tədbirlər görmək;
9.3. müvafiq orqanların icazəsini aldıqdan sonra müəyyən edilmiş formada akt tərtib edərək kassa əməliyyatlarınadəknağd pulların və digər qiymətli əşyaların yerində olmalarını yoxlamaq;
9.4. baş vermiş sığorta hadisəsi barədə Sığortaçıya dərhal yazılı şəkildə məlumat vermək.

10. Sığorta ödənişi aşağıdakı kimi hesablanır və ödənilir:

10.1. nağd pulun sığortası üzrə:
10.1.1. tam məhv olma, itki halında – Kassa kitabından təsdiq olunmuş çıxarış əsasında nominal üzrə;
10.1.2. ödəmə qabiliyyətinin itirilməsinə səbəb olmuş qismən zərər halında – nominalla təhvil verilmiş zədələnmiş banknotlara görə Azərbaycan Respublikası Milli Bankının hesablama-kassa mərkəzindən aldığı təzminatla arasındakı fərq kimi. Azərbaycan Respublikası Milli Bankınınxəzinədarlığının baş eksperti zədələnmiş kağız pulların əvəz edilməsinin qeyri-mümkünlüyü haqda qərar qəbul etdikdə, sığorta ödənişi onların tam məhvi halındakı kimi verilir.
10.2. qiymətləndirilməyən dövlət qiymətli kağızları üzrə - nominal dəyərləri əsasında.
10.3. qiymətləndirilməyən xüsusi müəssisə səhmləri üzrə - balans dəyərləri əsasında.
10.4. birja və ya xüsusi hərraclarda qiymətləndirilən, qiymətləri mütəmadi olaraq nəşr olunan digər qiymətli kağızlar üzrə - sığorta hadisəsinin baş verdiyi gün orta bazar dəyəri əsasında (alış və satış qiymətlərinin orta dəyəri).
10.5. qiymətli metallar və digər qiymətli əşyalar üzrə - birja qiymətlərinin və ya ekspert qiymətləndirməsinin əsasında.

11. Sığorta ödənişi əmlak oğurluq, qarət baş verdiyi anda ancaq xüsusi saxlanma yerlərində (zirehli yerlər, seyflər, yanmayan şkaflar və s.) olduqda, verilir. Sığortaçısığortamüqavilələrində bucürsaxlanmayerlərinintəhlükəsizliyininnövünü və dərəcəsinigöstərə, həmçininsığorta müqaviləsi ilə onun sığortalanması nəzərdə tutulduqda, qiymətli əmlakın saxlanma yerlərində və ya xüsusi saxlanma yerlərində saxlanmasını nəzərdə tuta bilər.

12. Sığortalı riskin dərəcəsini artıran halların aradan qaldırılması üçün bütün mümkün tədbirləri görməli, bu mümkün olmadıqda isə - Sığortaçı ilə razılaşdıraraq əlavə təhlükəsizlik tədbirləri görməlidir. Yuxarıda qeyd olunmuş öhdəliklərin Sığortalı tərəfindən icra olunmamasıQaydaların 26.2-ci maddəsində nəzərdə tutulmuş nəticələrə səbəb olur.

**Maddə 51. Yanğın, partlayış və daxili su basması nəticəsində mülki məsuliyyət**

51.1. Bu maddədə göstərilən əlavə təminatlar həm birlikdə, həm də ayrı-ayrılıqda verilə bilər.
51.1.1. İcarəyə götürənin mülkiyyət sahibi qarşısında məsuliyyəti.
51.1.1.1. Bu sığorta ilə, icarəyə götürənin icarəyə götürdüyü əmlaka vurduğu zərərə və ya həmin əmlakı yararsız vəziyyətə salmasına görə dəyən zərərlərə təminat verilir.
51.1.1.2. İcarəyə götürülən əmlaka vurulan zərərə görə icarəyə götürənin mülkiyyət sahibi qarşısındakı məsuliyyətinin sığortası üzrə veriləcək ödəniş hesablanarkən binanın, inşaat tarixindən etibarən köhnəlmə və aşınma dəyəri çıxılmaqla, hadisə baş verdiyi tarixə olan yerli bazar qiymətləri ilə yenidən tikilmə xərcləri əsas götürülür. Binanın yenidən tikilməsinə ehtiyac olmazsa, ödəniş məbləği, binanın hadisə tarixindən bir gün əvvəlki alış-satış qiymətindən torpaq sahəsinin dəyəri çıxılmaqla hesablanan məbləğdən artıq ola bilməz.
51.1.1.3. İcarə və ya icarədən mənfəət götürmə imkanının qeyri-mümkünlüyünə görə icarəyə götürənin mülkiyyət sahibi qarşısında məsuliyyət sığortası üzrə veriləcək ödəniş hesablanarkən, bir ildən çox olmamaq şərtilə, hadisə baş verdiyi tarixdə icarəyə verilmiş olan hissələrin təmir etdirilməsi və ya yenidən tikilməsi üçün müəyyən edilən müddətin icarə haqqına bərabər olan məbləğ əsas götürülür;
51.1.2. Mülkiyyət sahibinin icarəyə götürən qarşısında məsuliyyəti.
51.1.2.1. Mülkiyyət sahibinin icarəyə götürən qarşısında məsuliyyəti icarəyə götürülən bina ilə əlaqədar hüquqi məsuliyyəti əhatə edir və veriləcək ödəniş hesablanarkən, icarəyə götürənə məxsus mal və əmlakın bu Qaydalara əsasən hesablanan dəyəri əsas götürülür;
51.1.3. Mülkiyyət sahibi və ya icarəyə götürənin qonşular qarşısında məsuliyyəti.
51.1.3.1. Mülkiyyət sahibi və ya icarəyə götürənin qonşular qarşısında məsuliyyəti yanğın və ya partlayışın ətrafa sirayət etməsi və ya daxili su basması nəticəsində qonşu bina və ya mallara dəyəcək zərərləri əhatə edir.
51.1.3.2. Yanğın və ya partlayışın ətrafa sirayət etməsi və ya daxili su basması nəticəsində qonşulara dəyən zərərlərə görə mülkiyyət sahibi və ya icarəyə götürənin qonşulara vurduqları zərər və onun aradan qaldırılması ilə əlaqədar çəkilən xərclərə görə veriləcək ödənişin məbləği hesablanarkən bina və içindəki əmlakın bu Qaydalara əsasən hesablanan dəyəri əsas götürülür.

**Maddə 52. Şüşənin sındırılması**

52.1. Sığorta təminatı bu Qaydalarda istisna olunmayan istənilən risklə bağlı baş verən sığorta hadisəsi nəticəsində bu Qaydaların məqsədləri üçün binanın (tikilinin) bir hissəsi olan hər hansı şüşənin məhv olması və ya zədələnməsi düşülən "şüşənin sındırılması» nı əhatə edir.

52.2. Aşağıdakılar nəticəsində dəyən zərər sığorta ilə əhatə olunmur və ona görə sığorta ödənişi verilmir:

52.2.1. Binaya (tikiliyə) birləşdirilmiş lampaların və neon trubkaların qırılması;

52.2.2. səs sürəti ilə və ya daha yüksək sürətlə hərəkət edən təyyarənin, yaxud digər uçuş aparatlarının səbəb olduğu sıxma dalğası.

**Maddə 53. Yerüstü daşımalar**

1. Sığorta predmeti:

Hazırki müqavilə üzrə qanuna zidd olmayan, siyahısı Sığortalı tərəfindən Sığortaçıya təqdim edilən, sahibliyi Sığortalıya və ya başqalarına məxsus olan, lakin Sığortalının cavabdeh olduğu və/ və yaxud Sığortalının məsuliyyət daşıdığı mal və əmtəələr sığorta predmeti hesab olunur.
2. Sığorta təminatına aid istisnalar:
Hazırki sığorta müqaviləsi ilə sığortalana bilməz:
A. Hesablar, çeklər, əqdlər, borc haqqında bildiriş, qeydlər, əmanətlər, valyuta, pul, sikkə və markalar;
B. Zinət əşyaları, qiymətli daşlar, incəsənət əsərləri, külçə, qiymətli metallar və onlardan hazırlanan sikkələr;
C. Poçt və ya paket ilə göndərilmiş əmlak.
3. Sığortalanan risklər:
Sığorta təminatı yerüstü daşınma zamanı istənilən xarici səbəblərdən meydana gələn və Müqavilədə istisna edilməyən bütün növ fiziki məhv və ya ziyan risklərini əhatə edir.

**Maddə 54. Nağd pulun daşıması**

54.1. Sığorta predmeti:

Hazırki müqavilə üzrə qanuna zidd olmayan, sığorta müqaviləsində qeyd edilən, sahibliyi Sığortalıya və ya başqalarına məxsus olan, lakin Sığortalının cavabdeh olduğu və/ və yaxud Sığortalının məsuliyyət daşıdığı nəğd pul və qiymətli əşyalaravtonəqliyyat vasitəsi ilə daşınma zamanı sığorta predmeti hesab olunur.

54.1. Sığortalanan risklər:

54.1.1. Sığorta təminatı yerüstü daşınma zamanı:
- oğurluq və qarət
- daşıyıcı nəqliyyat vasitəsinin yol nəqliyyat hadisəsinə uğraması və (və ya)
- yanması

nəticəsində meydana gələn və müqavilədə istisna edilməyən bütün növ fiziki məhv və ya ziyan risklərini əhatə edir.
54.1.2. Əlavə razılaşma əsasında təbii fəlakət nəticəsində nağd pul və qiymətli əşyalar avtonəqliyyat vasitəsi ilə daşınma zamanı meydana gələn fiziki məhv və ya ziyan sığorta təminatına daxil oluna bilər.
54.2.3. sığortalanan əmlakın sığorta hadisəsi baş verən zaman və ya ondan dərhal sonra oğurlanması sığorta təminatına daxil edilir.

**Maddə 55. Konkret sığorta müqaviləsində digər əlavə təminatlar müəyyən edilə bilər.**